**Təlim və tədrisin təşkili və metodikası (MATL)**

**Tələbə: Afaq Qasımova**

**Elmi rəhbər: Ülkər Babayeva**

# Tezis mövzusu: Şagirdin öyrənməsində müəllim-şagird münasibətlərinin rolu

## Minnətdarlıq

Bu tədqiqat işinin hər mərhələsində mənə istiqamət verən, dəyərli bilik və təcrübəsini əsirgəməyən elmi rəhbərim Dr. Ülkər Babayevaya dərin təşəkkürümü bildirirəm. Onun motivasiyaedici yanaşması bu işin uğurla tamamlanmasında mühüm rol oynamışdır.

Tədqiqat prosesində peşəkar dəstəyi, obyektiv və konstruktiv rəyləri ilə elmi inkişafıma dəyərli töhfələr verən, düşüncəmi zənginləşdirən hörmətli müəllimim Dr. Könül Abaslıya da səmimi minnətdarlığımı ifadə edirəm.

Magistratura təhsilimin bütün mərhələlərində peşəkar inkişafımıza verdiyi dəstək və göstərdiyi qayğı ilə seçilən dəyərli dekanımız Ülviyyə xanım Mikayılovaya da təşəkkür edirəm.

Tədqiqatın data toplama mərhələsində mənə daim dəstək olan əziz dostum Ləman Bayramovaya və bu yolda motivasiya və mənəvi dəstəyini əsirgəməyən qrup yoldaşım Pərvanə Verdiyevaya da təşəkkür borcluyam.

Eyni zamanda, bu elmi yolun hər anında mənə dayaq olan, daim ruhlandıran  ailəmə sonsuz minnətdarlığımı bildirirəm. Onların sevgisi, anlayışı və dəstəyi bu prosesi uğurla başa vurmağımda ən böyük motivasiya mənbəyi olmuşdur.

# Mündəricat

Minnətdarlıq ........ 2
Xülasə ........ 4
Giriş ........ 5
Tədqiqatın əhəmiyyəti, aktuallığı və elmi yeniliyi ........ 6
Tədqiqatın məqsəd və gözləntiləri ........ 7
Tədqiqat sualları ........ 7
Ədəbiyyat icmalı ........ 8
Nəzəri çərçivə: Bağlılıq nəzəriyyəsi ........ 8
Müəllim-şagird münasibətləri və şagird öyrənməsi: ........ 9
Müəllim-şagird münasibətlərini formalaşdıran üç əsas amil ........ 9
Müəllim-şagird münasibətlərində digər amillərin əhəmiyyəti ........ 11
Metodologiya ........ 16
Tədqiqat metodu: ........ 16
Data toplama texnikası: ........ 17
Tədqiqat iştirakçıları və onların seçimi: ........ 18
Datanın toplanması: ........ 18
Datanın təhlili: ........ 19
Etik qaydalara riayət və anonimliyin təmin edilməsi: ........ 20
Tədqiqatın məhdudiyyətləri: ........ 21
Tapıntılar ........ 21
Müzakirə ........ 47
Nəticə ........ 51
Tövsiyələr ........ 51
Ədəbiyyat siyahısı ........ 53

**Xülasə**

Bu magistr dissertasiyası müəllim-şagird münasibətlərinin şagirdin öyrənməsindəki rolunu araşdırır. Tədqiqatın əsas məqsədi bu münasibətlərin şagirdlərin akademik uğurlarına, dərsə marağına, motivasiyasına və emosional inkişafına necə təsir etdiyini müəyyənləşdirməkdir. Əsas tədqiqat sualı müəllim-şagird münasibətlərinin öyrənməyə təsirini anlamaq və bu münasibətlərin müəllim və şagirdlər tərəfindən necə dəyərləndirildiyini öyrənməkdir.

Araşdırmanın nəzəri bazasını bağlılıq nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyəyə görə, uşaqların sosial və akademik inkişafı üçün emosional təhlükəsizlik və sabit münasibətlər həlledici rol oynayır; müəllim-şagird münasibətləri də bu təhlükəsiz və inamlı əlaqələrin bir hissəsi hesab olunur.

Tədqiqat keyfiyyət metodologiyası çərçivəsində fenomenoloji yanaşmaya əsaslanmışdır. Məlumatlar Gürcüstanın Marneuli rayonunda fəaliyyət göstərən iki orta məktəbdə çalışan 4 müəllim və 10 şagirdlə yarı strukturlaşdırılmış fərdi və qrup müsahibələri vasitəsilə toplanmışdır. Toplanan məlumatlar tematik analiz üsulu ilə təhlil edilmişdir.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, səmimiyyət, hörmət, fərdi yanaşma və emosional dəstək əsasında qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin dərsə marağını artırır, onların motivasiyasını və özünə inamını gücləndirir, təhsil prosesində daha fəal iştiraklarına şərait yaradır. Əksinə, sərt, soyuq və anlayışsız münasibətlər şagirdlərin özünü ifadə etməsinə mane olur, onların dərsə marağını və öyrənmə keyfiyyətini azaldır.

Dissertasiya müəllimlər üçün praktik tövsiyələr təqdim etməklə yanaşı, müəllim-şagird münasibətlərinin təhsilin keyfiyyətindəki roluna dair ədəbiyyata orijinal töhfə verməyi və bu sahədə gələcək tədqiqatlar üçün yeni perspektivlər açmağı hədəfləyir.

**Açar sözlər:** Müəllim-şagird münasibətləri, öyrənmə, təhsil, səmimiyyət, emosional dəstək, motivasiya, keyfiyyət tədqiqatı

**Giriş**

Şagirdlər saatlarının ən azı dörddə birini məktəblərdə, əksəriyyətini sinif otaqlarında keçirirlər ki, bu da uşaqlara və gənclərə təsir etmək üçün ən yaxın və potensial olaraq təsirli şəraitlərdən biridir (Pianta və dig., 2012). Müxtəlif yanaşmalar və amillər nəzərdən keçirildikdə, şagirdlərin öyrənməsinə ən çox təsir edən əsas amillərdən birinin müəllim-şagird münasibətləri olduğu aydınlaşır. Bu münasibətlərin tədris prosesinə təsiri, eləcə də şagirdlərin öyrənməsində rolu onların daha dərindən araşdırılmasını zəruri edir. Müxtəlif tədqiqatlarda müəllim-şagird münasibətləri fərqli təriflərlə izah edilsə də, onların əsas mahiyyəti təhsil və inkişaf üçün əsaslı bir zəmin yaratmasıdır.

Larson və digərləri (2002) müəllim-şagird münasibətlərini, hər gün baş verən qarşılıqlı ünsiyyətə əsaslanan və səlahiyyətli şəxs ilə tabeliyində olan arasında qurulan formal bir əməkdaşlıq kimi təyin edirlər. Eyni zamanda, Pianta və başqaları (2012) müəllim-şagird münasibətlərini şagird və müəllim arasında paylaşılmış emosional bağ kimi təsvir edirlər. Allen və digərləri (2013) əlavə edirlər ki, müəllim-şagird münasibətləri şagird üçün emosional bir əlaqə yaradır. Bu emosional əlaqə şagirdin müəllimlər və yaşıdlarının qarşısında özünü rahat hiss etməsini təmin edir və bunun nəticəsində dərs prosesi daha uğurlu keçir.

Son iyirmi ildə aparılan geniş tədqiqatlar və ədəbiyyatın göstərdiyi nəticələrə əsasən, erkən uşaqlıq dövründə (doğulandan 8 yaşa qədər), orta və ali məktəb siniflərində böyüklərlə uşaqlar arasında, eləcə də müəllimlərlə şagirdlər arasında münasibətlər şagirdlərin bacarıqlarının inkişafında və onların öyrənməsində çox önəmlidir (Pianta və dig., 2003; Pianta və dig., 2012; Pianta və dig., 2010).

Şagirdlərin müəllimlərlə münasibətləri və aralarındakı qarşılıqlı əlaqələr onların inkişafına təsir edir. Müəllimlər şagirdləri mənalı şəkildə dərsə cəlb etdikdə, onlara öyrənmə çətinlikləri ilə üzləşməyə kömək etdikdə və sosial dəstək göstərdikdə, bu münasibətlər şagirdlərin inkişafına təkan verir. Başqa sözlə, müəllim və şagirdlər arasındakı münasibətlər sinfin şagirdləri inkişaf etdirmək gücünü göstərir. Bu əlaqələr və qarşılıqlı təsirlər, şagirdlərin dərslərə maraq göstərməsini və dərsə tam şəkildə

qoşulmasını başa düşmək üçün əsasdır (Pianta və dig., 2012). Həm müəllimin, həm də şagirdin xüsusiyyətlərinin münasibətin keyfiyyətini formalaşdırması və dəyişdirməsi məntiqlidir. Beləliklə, müəllim nə qədər çox motivasiya versə, şagirdlər bir o qədər yaxşı öyrənəcəklər (Khairiah Syahabuddin və dig., 2020).

## Tədqiqatın əhəmiyyəti, aktuallığı və elmi yeniliyi

Pedaqoqlar və mütəxəssislər uzun zamandır müəllimlərin yalnız akademik bilikləri ötürməklə məhdudlaşmadığını, eyni zamanda şagirdlərin həyatında mühüm rol oynadıqlarını vurğulayırlar. Müəllimlərlə şagirdlər arasında formalaşan münasibətlər sinif hüdudlarından kənara çıxaraq, şagirdlərin öyrənmə motivasiyasına, özünə inamına və ümumi məktəb təcrübəsinə əhəmiyyətli dərəcədə təsir göstərir (Zainullah və dig., 2023). Bu tədqiqat işinin mövzusunun seçilməsində əsas məqsəd, öyrətmə və öyrənmə çərçivəsində mühüm əhəmiyyətə malik bir sahəyə fokuslanmaq olmuşdur. Şagirdlərin öyrənməsinə təsir edən və onların akademik inkişafında əsas rol oynayan faktorları müəllim baxış bucağından araşdırmaq həm nəzəri, həm də praktik baxımdan əhəmiyyət daşıyır. Hər bir müəllimin əsas məqsədi effektiv öyrətməkdir və buna nail olmaq üçün öyrənməyə təsir edən amilləri dərindən təhlil etməli və tədris prosesində tətbiq etməlidir. Müəllim, hər bir şagirdə fərdi yanaşma nümayiş etdirərək onun ehtiyac və maraqlarını başa düşməli, çünki şagirdlərlə sağlam münasibət qurmaq onların akademik uğuru üçün bilik vermək qədər vacibdir.

Şagirdlərin öyrənməsinə təsir edən əsas amillərdən biri kimi müəllim-şagird münasibətlərinin rolu bu mövzunu xüsusi aktuallaşdırır. Müasir təhsil sistemində bu münasibətlərin qurulmasında hələ də problemlərin mövcud olması – qarşılıqlı anlaşmanın zəifliyi, münasibətlərin inkişafına maneə yaradan faktorlar və hər iki tərəfin əlaqəni gücləndirmək üçün kifayət qədər təşəbbüs göstərməməsi məsələləri mövzunun araşdırılmasını zəruri edir.

Son iyirmi ildə aparılan tədqiqatlar (məsələn, Allen və dig., 2013; Pianta və dig., 2012; Zainullah və dig., 2023) da göstərir ki, müəllim-şagird münasibətləri təhsil sahəsində hələ də mühüm aktuallıq kəsb edir. Bu araşdırmalar həmin münasibətlərdəki boşluqların aradan qaldırılmasının tədris keyfiyyətinə və

şagirdlərin akademik nailiyyətlərinə ciddi təsir göstərəcəyini vurğulayır.

Tədqiqatın Azərbaycan dilində aparılması isə Gürcüstanda Azərbaycan dilli müəllimlər və tədqiqatçılar üçün bu sahədəki ilk elmi işlərdən biri olması baxımından xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatın nəticələrinin yalnız müəllimlər, tədqiqatçılar üçün deyil, ümumilikdə Azərbaycan dilli oxucular üçün də faydalı olacağı gözlənilir. Bu araşdırma, Azərbaycan icması arasında təhsilin inkişafına töhfə verməyi, müəllim-şagird münasibətlərinin təhsildəki roluna dair geniş maarifləndirmə yaratmağı hədəfləyir. Beləliklə, həm yerli təhsil sisteminə, həm də gələcək tədqiqatlara yeni bir perspektiv qazandırılması nəzərdə tutulur.

Bu tədqiqat nəticəsində əldə olunacaq biliklər, müəllim-şagird münasibətlərinin öyrənmədə rolu haqqında mövcud ədəbiyyata mühüm əlavələr edəcək, praktiki sahədə isə müəllimlərin professional fəaliyyətinə dəstək olmaqla təhsilin keyfiyyətinin artırılmasına töhfə verəcəkdir.

## Tədqiqatın məqsəd və gözləntiləri

Bu tədqiqatın əsas məqsədi, müəllim-şagird münasibətlərinin şagirdin öyrənməsinə təsirini dərindən araşdırmaq və bu sahədə əldə olunan nəticələri müəllimlər üçün praktik tövsiyələrə çevirməkdir. Müəllim-şagird münasibətləri təhsilin keyfiyyətini artıran əsas amillərdən biri olduğuna görə, bu istiqamətdə həm nəzəri əsaslandırmalar təqdim etmək, həm də müəllimlər üçün yeni və effektiv yanaşmalar qazandırmaq hədəflənir.

Tədqiqat, müəllim-şagird münasibətlərinin şagirdin öyrənməsində oynadığı rolun mahiyyətini üzə çıxarmaqla yanaşı, həm müəllimlərin, həm də şagirdlərin bu münasibətləri necə dəyərləndirdiklərini öyrənməyi qarşısına məqsəd qoyur. Bu yolla, tədris prosesində münasibətlərin daha effektiv qurulmasına töhfə vermək və təhsil praktikasında bu mövzuda elmi əsaslı yeniliklərə yol açmaq gözlənilir.

## Tədqiqat sualları

Əsas tədqiqat sualı və alt suallar aşağıdakı kimi müəyyənləşdirilmişdir.

Əsas tədqiqat sualı: Müəllim-şagird münasibətlərinin şagirdin öyrənməsində rolu nədən ibarətdir?

Alt sual 1: Müəllimlər şagirdlərin öyrənməsində müəllim-şagird münasibətlərini necə

dəyərləndirirlər?

Alt sual 2: Şagirdlər müəllimlərlə qarşılıqlı münasibətlərinin öyrənmələrində rolu haqqında nə düşünürlər?

**Ədəbiyyat icmalı**

## Nəzəri çərçivə: Bağlılıq nəzəriyyəsi

Müəllim-şagird münasibətləri haqqında və bu əlaqələrin şagirdlərin akademik nailiyyətlərinə və inkişafına təsirini anlamaq üçün ədəbiyyat bir neçə nəzəri perspektivdən çıxış edir. Bu araşdırmanın əsasını təşkil edən əsas nəzəri çərçivə bağlılıq nəzəriyyəsidir, çünki tədqiqat işində iki və ya daha çox insan arasındakı münasibətlərə, xüsusən də uzunmüddətli əlaqələrə diqqət yetirilir.

Bağlılıq nəzəriyyəsi 1958-ci ildə John Bowlby tərəfindən hazırlanmış və 1969-cu ildə Attachment and Loss trilogiyasında nəşr olunmuşdur. Bu nəzəriyyə, fərdlərin uzunmüddətli və qısamüddətli şəxsiyyətlərarası münasibətlərinin dinamikasını anlamağa çalışan psixoloji modeldir. Körpəlik və yeniyetməlik dövrlərində bağlılıq davranışlarının əsas məqsədi, əksər hallarda valideynlərin yaxınlığını təmin etməkdir (Riley, 2011). Bağlılıq nəzəriyyəsi, insanların başqaları ilə güclü emosional bağlar yaratmağa meyilini və bu bağların ayrılıq və itki hallarında yaranan narahatlıq, qəzəb və depressiya kimi emosional sıxıntıların konseptuallaşdırılmasında rolunu izah edir (Bowlby, 2015).

Bağlılıq davranışı, qidalanma və cinsi davranışdan fərqli olaraq, lakin insan həyatında onlar qədər bərabər əhəmiyyətə malik bir davranış sinfi kimi qəbul edilir. Psixiatrik pozğunluqların bir çox forması bağlanma davranışlarının inkişafındakı sapmalardan və ya inkişafın uğursuzluğundan qaynaqlanır (Bowlby, 2015). Bununla belə, Riley (2011) qeyd edir ki, bağlılıq nəzəriyyəsi münasibətlərin yalnız müəyyən aspektlərini izah edir və ümumi münasibətlər nəzəriyyəsi kimi formalaşmamışdır.

Bağlılıq nəzəriyyəsinin əsas ideyası odur ki, uşağın sağlam sosial-emosional inkişafı və emosiyalarını idarə etməyi öyrənməsi üçün onun ən azı bir önəmli yetkinlə möhkəm münasibət qurması vacibdir. Bowlby (2015) vurğulamışdır ki, böyüklər proqnozlaşdırıla bilən şəkildə emosional dəstək göstərdikdə və ardıcıl, təhlükəsiz mühit təmin etdikdə, uşaqlar daha özünə güvənli olur və daha yaxşı

öyrənirlər. Bu zaman uşaqlar həmin böyükləri “təhlükəsiz baza” kimi istifadə edərək şəxsi münasibətlərini araşdırırlar (Omodan & Tsotetsi, 2020). Erkən bağlılıq nümunələri sonrakı münasibətlərdəki gözləntiləri, o cümlədən müəllimlərlə olan əlaqələri formalaşdırır, lakin tamamilə müəyyən etmir.

## Müəllim-şagird münasibətləri və şagird öyrənməsi:

### Müəllim-şagird münasibətlərini formalaşdıran üç əsas amil

Müəllim-şagird münasibətləri, sinifdə müəllim və şagird arasında qurulan əlaqələri və tədris zamanı qarşılaşdıqları vəziyyətləri əhatə edir. Bu münasibətlər, şagirdin öyrənmə prosesindəki təcrübələrini və müəllimin dərs keçmə tərzini formalaşdırır, eyni zamanda şagirdlərin akademik, sosial, davranış və emosional inkişafında mühüm rol oynayır (McGrath & Van Bergen, 2015).

Dünya miqyaslı tədqiqatlar müəllim-şagird münasibətləri ilə şagirdlərin öyrənmə prosesi arasında güclü müsbət əlaqə olduğunu təsdiqləmişdir (Al Nasseri et al., 2014; Pianta & Stuhlman, 2004; Pianta et al., 2012). Həmin tədqiqatların nəticələrinə görə, müəllim-şagird arasında müsbət münasibətlər şagirdlərin akademik nailiyyətlərinə müsbət təsir edir, neqativ münasibətlər isə əksinə, mənfi təsir göstərir. Pianta və digərləri (2012) tərəfindən ABŞ-də aparılan tədqiqat göstərmişdir ki, müəllim- şagird qarşılıqlı əlaqələrinin keyfiyyəti şagirdlərin dərsə cəlb olunmasında mühüm rol oynayır. Yüksək keyfiyyətli münasibətlər şagirdlərin motivasiyasını artıraraq onların akademik uğurlarını müsbət istiqamətdə gücləndirir (Pianta və dig., 2012). Müəlliflər qeyd edirlər ki, müəllim-şagird münasibətləri yalnız akademik nailiyyətlərlə məhdudlaşmır, həm də şagirdlərin sosial bacarıqları və davranışları üzərində əhəmiyyətli təsir göstərir.

Pianta və Stuhlman (2004) tərəfindən aparılan bir tədqiqat müəllim-şagird münasibətlərinin keyfiyyətinin həm sosial, həm də akademik bacarıqlara mühüm təsir etdiyini aşkar etmişdir. Araşdırma nəticələri göstərmişdir ki, müəllimlərin şagirdlərlə qurduğu müsbət emosional münasibətlər onların özünüdərk qabiliyyətinə və sosial inkişafına müsbət təsir edir. Bu münasibətlər şagirdlərin sosial mühitdə özlərini daha rahat hiss etmələrinə və fərdi inkişaf proseslərində irəliləmələrinə şərait yaradır (Pianta et

al., 2012). Ədəbiyyat araşdırması zamanı müəllim-şagird münasibətlərinin necə yarandığı və formalaşdığı məsələsinə də diqqət yetirilmişdir.

Araşdırmalar zamanı müəllim-şagird münasibətlərinin müxtəlif amillərdən asılı olaraq formalaşdığını müşahidə etmək mümkündür. Bu amillər arasında münaqişə və yaxınlıq kimi faktorlar xüsusi əhəmiyyət daşıyır. Müəllim-şagird münasibətlərində yaxınlıq və münaqişə arasındakı balans, şagirdlərin məktəbə adaptasiyasında vacib rol oynayır. Müəllimlərin şagirdlərlə qurduğu yaxınlıq onların akademik bacarıqlarına müsbət təsir göstərərkən, münaqişə isə mənfi təsir göstərir (Pianta & Stuhlman, 2004). Araşdırmanın nəticələrinə görə, müəllimlərin şagirdlərlə olan münasibətləri onların sosial bacarıqlarını və akademik müvəffəqiyyətlərini proqnozlaşdırır. ABŞ-də aparılan tədqiqat da müəllim-şagird münasibətlərinin üç əsas xüsusiyyətini — yaxınlıq, asılılıq və münaqişəni aşağıdakı kimi izah edir: müəllim-şagird münasibətində yaxınlıq, uşaqların akademik performansları ilə müsbət bağlıdır. Daha yaxın münasibətləri olan şagirdlər, müəllimlərinin fikrinə görə, məktəbi daha çox bəyənir və müsbət davranışlar nümayiş etdirir. Uşaqların müəllimə olan asılılığı, onların məktəbə uyğunlaşma çətinlikləri ilə güclü əlaqədardır. Yüksək asılılıq səviyyəsində olan şagirdlər, məktəbdə daha mənfi münasibətlər göstərir, daha az fəal iştirak edir və daha az akademik nailiyyət əldə edirlər. Müəllim-şagird münasibətindəki münaqişə isə uşaqların məktəb mühitinə uyğunlaşmasını mənfi təsir edir. Münaqişəli münasibətlər şagirdlərdə məktəbə olan
sevgini azaldır, məktəbdən uzaqlaşma meylini artırır və özünü idarəetmə bacarıqlarını azaldır (Birch & Ladd, 1997).

Sonralar Koomen və digərləri (2011) tərəfindən Niderlandda aparılan tədqiqat da müəllim-şagird münasibətlərinin üç-faktor modelini təsdiqləyir. Tədqiqatın nəticələrinə görə, müəllim-şagird münasibətləri ölçüsü “yaxınlıq”, “münaqişə” və “asılılıq” faktorlarından ibarət üç-faktorlu modelin ümumilikdə qəbul edilə bilən bir uyğunluğu olduğunu göstərir. Bu model, müəllimlərin şagirdlərlə münasibətlərini bu üç aspekt üzrə qiymətləndirdiyini aşkar edir. Nəticələr göstərir ki, müəllim-şagird münasibətlərini qiymətləndirmək üçün müəllim-şagird münasibətlərinin faktor strukturu ümumilikdə

güclüdür (Koomen et al., 2011).

Doumen və digərləri (2012) də bu aspektləri tədqiq edərək, müəllim-şagird münasibətlərində "yaxınlıq" və "münaqişə"nin şagirdlərin öyrənmə prosesində xüsusi rol oynadığını vurğulayırlar. Yüksək yaxınlıq səviyyəsi uşaqların dərs zamanı daha fəal olmasına və sinifdə daha çox iştirak etməsinə səbəb olduğu halda, yüksək münaqişə səviyyəsi şagirdlərin sinifdə iştirakını əhəmiyyətli dərəcədə azaldır (Doumen et al., 2012).

Qanada isə müəllim-şagird münasibətləri haqqında aparılan bir tədqiqatda dörd əsas qrupla təsnif edilir: bağlılıq, asılılıq/müstəqillik, narahatlıq və sakit/konfliktli münasibətlər (Mensah & Koomson, 2020). Müəlliflər bu qrupları müsbət və mənfi münasibətlərə ayıraraq onların şagirdlərin akademik nailiyyətlərinə təsirini ölçmüşdür.

## Müəllim-şagird münasibətlərində digər amillərin əhəmiyyəti

Müəllim-şagird münasibətlərini təşkil edən faktorlardan əlavə, bu münasibətlərin formalaşması, inkişafı və gücləndirilməsi üçün qayğı, dəstək, etibar və hörmət kimi amillərin əhəmiyyəti müxtəlif tədqiqatlarda vurğulanır. Bu amillər yalnız münasibətlərin keyfiyyətini artırmaqla kifayətlənmir, eyni zamanda şagirdlərin motivasiyasına, sinifdəki davranışlarına və akademik nailiyyətlərinə də müsbət təsir göstərir.

Al Nasseri və digərləri (2014) tərəfindən aparılan ədəbiyyat icmallı tədqiqat, şagird və müəllim arasında müsbət əlaqələrin şagirdlərin özünə inamını artırdığını və bu münasibətlərin şagirdlərə daha rahat öyrənmə mühiti təmin etdiyini göstərir. Araşdırma, qayğı, dəstək, etibar (inam) və hörmət mövzularının, şagirdlərin öyrənməyə qarşı müsbət münasibət bəsləməsinə kömək etdiyini izah edir. Qayğı göstərən münasibətlər şagirdlərin stresini azaldır və onların öyrənmə prosesinə daha rahat yanaşmalarına şərait yaradır. Bu, həmçinin şagirdlərin özünə inamını və müstəqilliyini artırır. Dəstək göstərən müəllim-şagird münasibətləri şagirdlərə çətinliklərin öhdəsindən gəlməkdə kömək edir və onların öyrənmə imkanlarını maksimuma çatdırır. Etibar və hörmət üzərində qurulan münasibətlər isə şagirdlərə suallar verməkdə və dəstək axtarmaqda daha cəsarətli olmağa imkan tanıyır, bu da onların öyrənmə prosesini asanlaşdırır (Al

Nasseri et al., 2014).

Klem və Connell (2004) tərəfindən ABŞ-də aparılan tədqiqatla da sübut edilir ki, müəllimin dəstəyi şagirdin dərsə marağını və bağlılığını artırır. Şagirdlər müəllimlərdən dəstək gördükləri zaman, məktəbdə daha çox əlaqəli və maraqlı olurlar. Müəllimlərin qayğıkeş yanaşması və ədalətli gözləntiləri, şagirdlərin həm akademik uğuruna, həm də məktəblə əlaqəsinə müsbət təsir göstərir. Tədqiqat müəllim dəstəyinin şagirdlərin qiymətlərinə və onların akademik göstəricilərinə əhəmiyyətli təsir etdiyini vurğulayır. Xüsusilə orta məktəblərdə müəllim dəstəyinin yüksək səviyyədə olduğu zaman, şagirdlər daha çox motivasiya olunur və məktəblə əlaqələrini davam etdirirlər. Dəstək çatışmazlığı isə əksinə, mənfi nəticələrə gətirib çıxarır. Müəllim dəstəyinin olmaması şagirdlərdə aşağı akademik nailiyyətlər, məktəbdən yayınma və məktəbdən tamamilə imtina kimi mənfi nəticələrə səbəb ola bilər. Tədqiqat göstərir ki, aşağı səviyyədə dəstək alan şagirdlər məktəbdə uğursuz olma
riski ilə üzləşirlər (Klem & Connell, 2004).

Müəllim-şagird münasibətlərində sözügedən mövzular Meksikada aparılan tədqiqatda da əks olunmuşdur. Müəllimlərin şagirdlərin şəxsi inkişafına verdiyi dəstək, onların motivasiyasını artırır. Müəllimlərin şagirdlərə hörmətlə yanaşması, etibarın artmasına səbəb olur. Şagirdlər, müəllimlərinin professional davranışlarını və diqqətini yüksək qiymətləndirirlər; müəllimlərin şagirdlərlə dostca və açıq ünsiyyət qurması isə onların öyrənmə mühitində daha rahat hiss etmələrinə kömək edir (García Sánchez et al., 2013). Bənzər nəticələrə 2017-ci ildə müəllim-şagird münasibətlərinin akademik uğurlara necə təsir etdiyini araşdıran Rumıniyada aparılan tədqiqatda da rast gəlmək olar. Müəllif göstərir ki, müəllim-şagird münasibətləri şagirdlərin akademik uğurlarına müsbət yöndə təsir edir. Nəticələrə əsasən, qarşılıqlı hörmət və müəllimlərin qayğısı şagirdlərin akademik performanslarına əhəmiyyətli dərəcədə təsir edir (Mocreia Rebrean, 2017). Başqa bir tədqiqat isə müəllimlərin dəstəyi şagirdlərin yaradıcı düşüncələrini inkişaf etdirməyə kömək etdiyin ortaya qoyur. Müsbət münasibət, şagirdlərin innovativ düşüncələrini cəsarətləndirmək və onlara öz ideyalarını ifadə etmək üçün bir mühit yaradır. Ümumilikdə, müəllim-şagird münasibətlərinin şagirdlərin emosional və akademik inkişafı üzərində böyük təsiri

olduğu müəyyən edilir (Dai, 2004).

Vatansever Bayraktar (2015) isə Türkiyədə müəllim-şagird ünsiyyətinin əhəmiyyətini araşdırarkən müəllimlərin şagirdlərinə göstərdiyi empatiyanı xüsusi vurğulayır. Müəllifə görə, müəllimlərin şagirdlərə qarşı empatiya ilə yanaşmaları onların daha yaxşı ünsiyyət qurmalarına kömək edir. Empatik yanaşma, şagirdlərin dərsdə özlərini daha etibarlı hiss etmələrinə və müəllimləri ilə olan ünsiyyətlərinin keyfiyyətinin artmasına şərait yaradır. 2023-cü ildə İndoneziyada aparılmış bir araşdırmada yenə də şagirdlər müəllimlərin səmimi, empatik və hörmətli yanaşmalarını dəstəkləyici öyrənmə mühiti kimi dəyərləndirirlər. Bu, öz növbəsində, onların dərslərdə daha aktiv iştirak etməsinə səbəb olur. Başqa bir tədqiqatın nəticələri də şagirdlərin müəllimlərin empatiya nümayiş etdirməsini və onların fərdi inkişafına göstərdikləri marağı xüsusi dəyərləndirdiyini ortaya qoyur (García Sánchez et al., 2013).

Zainullah və digərləri (2023) tərəfindən aparılan tədqiqatda müəllimlərin şagirdlərə yaxınlaşma tərzi, ünsiyyət bacarıqları və şagirdlərin rifahına həqiqi maraq göstərmələrinin sinifdə təhlükəsizlik və etibar hissinin formalaşmasında mühüm rol oynadığı vurğulanır. Sözügedən tədqiqatda müsbət müəllim-şagird münasibətləri ilə akademik nailiyyətlər arasında güclü əlaqə müəyyən edilib. Müsbət münasibətlərə malik olan şagirdlərin dərslərdə daha fəal iştirak etdikləri, çətinliklərlə üzləşəndə kömək istəməyə daha çox meyilli olduqları və daxili motivasiyalarının daha güclü olduğu müşahidə edilib. Şagirdlərin akademik və qeyri-akademik həyatına diqqət yetirən müəllimlər, şagirdlərin dərslərdə daha fəal iştirak etmələrinə və müvəffəqiyyətlərini artırmalarına kömək edir. Bəzi müəllimlərin sərt davranışları, şagirdlərin motivasiyasını azaldır və onların akademik müvəffəqiyyətinə mənfi təsir göstərir. Müəllimlərin və şagirdlərin münasibətlərində olan neqativ davranışlar, məsələn, hörmətsizlik və sərtlik, şagirdlərin qeyri-etik davranışlarına səbəb ola bilər (Mensah & Koomson, 2020).

Müəllim-şagird münasibətləri mövzusunda aparılan tədqiqatlar arasında bu iki dəyişən haqqında yüksək korelasiyanı göstərməyən tədqiqatlar da mövcuddur. Məsələn 2020-ci ildə İndoneziyada müəllim-şagird münasibətlərinin öyrənmədə əhəmiyyətini araşdıran tədqiqatda, nəticələrin bir hissəsinə əsasən, yüksək səviyyəli bir əlaqə aşkar edilsə də, digər hissəsinə nəzər saldıqda, bu əlaqənin orta səviyyədə olduğu və

qarşılıqlı münasibətlərdə problemlərdən dolayı zəif olduğu qeyd edilib. Şagirdlərin müəllimlərlə ünsiyyət qurarkən qarşılaşdıqları problemlər arasında utancaqlıq, müəllimlərdən qorxma və müəllimlər tərəfindən diqqət çatışmazlığı göstərilir. Şagirdlər, bəzi hallarda, xüsusən yaşlı və təcrübəli müəllimlərə sual verməkdən çəkinirlər (Syahabuddin & Maghfirah, 2020).

2023-cü ildə Türkiyədə aparılan bir tədqiqatda da müsbət müəllim münasibətləri ilə şagirdlərin akademik nailiyyətləri arasında orta səviyyədə müsbət əlaqə olduğu müəyyən edilmişdir. Tədqiqatçıların fikrincə, müsbət müəllim-tələbə münasibətləri tələbələrin uğuruna orta dərəcədə müsbət təsir göstərir. Digər tərəfdən, mənfi müəllim münasibətləri, xüsusən də müəllimlərin daxili vəziyyətləri ilə bağlı olan mənfi intrapersonal münasibətlər, şagirdlərin akademik nailiyyətlərinə orta səviyyədə mənfi təsir edir (Göktaş & Kaya, 2023).

Omodan və Tsotetsi (2018) tərəfindən aparılan bir tədqiqatda, müəllim-şagird münasibətlərinin şagirdlərin sosial və akademik inkişafında kritik rola malik olduğunu qeyd edir. Müəlliflərə görə, müsbət münasibətlərin mövcudluğu, şagirdlərin akademik nəticələrini artırır, sinifdə iştirak və motivasiyanın artması ilə onların performansı arasında sıx əlaqə vardır. Şagirdlər, müəllimlərindən dəstək və motivasiya aldıqları zaman dərslərdə daha fəal iştirak edirlər. Malik (2023) tərəfindən aparılan bir araşdırmada isə, müsbət müəllim-şagird münasibətlərinin şagirdlərin davranış, emosional və kognitiv məşğulluğunu artırdığı qeyd olunur. Bu cür münasibətlərə malik olan şagirdlər özlərini daha güvənli hiss edir və çətin tapşırıqları daha asan başa düşür, bu da imtahan nəticələrinə müsbət təsir edir. Əksinə, mənfi müəllim-şagird münasibətləri şagirdlərin dərsə marağını azaldır, onların dərsdə diqqətini yayındırır və dərsdən qalma hallarına səbəb olur. Bu da onların sinifdə iştirakını və akademik göstəricilərini aşağı salır.

Fomichenko (2017) Rusiyada apardığı tədqiqatda müəllim-şagird münasibətlərinin şagirdlərin öyrənmə uğurlarına və motivasiyasına əhəmiyyətli təsir göstərdiyini vurğulayır. Müəllifin fikrincə,

müəllim və şagird arasında müsbət münasibətlər şagirdlərin özlərini psixoloji olaraq daha güvənli hiss etmələrinə kömək edir. Bu, onların dərsə daha yaxşı fokuslanmalarına gətirib çıxarır və şagirdlərin daha

yüksək akademik nailiyyətlər əldə etməsi ilə nəticələnir. Tədqiqat müəllimlərin emosional dəstəyi və akademik rəhbərliyinin, şagirdlərin dərsə marağını və fəal iştirakını artırdığını, beləliklə öyrənmə prosesində daha həvəsli və uğurlu olmalarına kömək etdiyini göstərir (Fomichenko, 2017). 2019-cu ildə bu mövzuda apardığı tədqiqatla Fomichenko (2019) yenə də müəllim-şagird münasibətlərinin şagirdlərin öyrənmə və inkişafı üzərində əhəmiyyətli təsiri olduğunu vurğulayır. Müəllif bu araşdırması ilə eyni zamanda problemli münasibətlərin də təsirini göstərir. Müəllimlə şagirdlər arasındakı problemli münasibətlər akademik performansa, şagirdlərin davranışlarına və məktəbdəki mühitə mənfi təsir edir. Bu cür münasibətlər şagirdlərin özlərini izolyasiya etməsinə və akademik uğurlarını aşağı salmasına səbəb ola bilər deyə nəticələr göstərirdi (Fomichenko, 2019).

Xu və Qi (2019) tərəfindən aparılan tədqiqatda müəllim-şagird münasibətləri ilə akademik nailiyyətlər arasında güclü müsbət əlaqə tapılmışdır. Tədqiqatın nəticələri göstərir ki, şagirdlərin müəllimləri ilə yaxşı münasibətləri olduqda, onların riyaziyyat üzrə akademik nailiyyətləri daha yüksək olur. Müəllim-şagird münasibətləri şagirdlərin özünə inamını artırır və bu da akademik nailiyyətlərə müsbət təsir göstərir. Tədqiqatda qeyd olunur ki, özünə inamın vasitəçilik təsiri ümumi təsirin 68%- ni təşkil edir. Bu, şagirdlərin özünə inamının yaxşı müəllim-şagird münasibətləri ilə artması və bunun akademik nəticələrdə özünü göstərməsi deməkdir. Bu tapıntılar müəllim-şagird münasibətlərinin yaxşılaşdırılmasının təkcə akademik nəticələrə deyil, həm də şagirdlərin özünə inamının artmasına və ümumi təhsil uğurlarının güclənməsinə səbəb olduğunu vurğulayır (Xu & Qi, 2019).

2023-cü ildə Çində aparılan daha bir tədqiqat da müəllim-şagird münasibətləri ilə şagirdlərin ibtidai təhsil səviyyəsində akademik uğurları arasında müsbət əlaqəni bir daha təsdiqlədi. Bu tapıntılar

müəllim-şagird münasibətlərinin ibtidai təhsildəki əhəmiyyətini vurğulayır və müəllimlərin bu münasibətləri gücləndirmək üçün daha çox diqqət yetirmələrinin vacibliyini göstərir (Mengqi Fan, 2023).

Tədqiqatların nəticələrinə nəzər salarkən, mövzu haqqında verilən bəzi təklif və tövsiyələr də diqqət çəkən oldu. Müəlliflər, müəllim-şagird münasibətlərinin formalaşması və inkişafı üçün inkluziv mühitin yaradılmasını vacib hesab edir (Higgins, 2011). Higgins (2011) müəllimlərin müxtəlifliyi qəbul etməsinin və sinifdə inklüziv bir mühit yaratmasının şagirdlərin özlərini rahat hiss etmələrinə və dərslərdə daha aktiv iştirak etmələrinə imkan yaratdığını göstərir. Eyni mövzu 2023-cü ildə İndoneziyada aparılan tədqiqatda da müzakirə olunmuşdur. Müəlliflər müəllim-şagird münasibətlərinin inkişafında mədəni həssaslıq və inklüziv sinif təcrübələrinin əhəmiyyətli rol oynadığını vurğulamışdır (Zainullah, et al., 2023). Müəlliflərə görə, müəllimlər, məktəb rəhbərləri və siyasətçilər bu müsbət münasibətlərin inkişafını dəstəkləyən təşəbbüslərə təcili olaraq diqqət yetirməlidirlər. Tədqiqat, müəllim hazırlığı proqramlarına sərmayə qoyulmasının şəxslərarası bacarıqları və mədəni həssaslığı artıraraq tələbələr üçün inklüziv və gücləndirici bir öyrənmə mühiti yarada biləcəyini göstərir (Zainullah, et al., 2023).

2016-ci ildə London Universitet Kollecində (UCL) müəllim-şagird münasibətlərinin yaxşılaşdırılması mövzusunda Fosen (2016) apardığı tədqiqatla maraqlı nəticələr göstərməklə yanaşı, diqqətəlayiq tövsiyələr də verir. Bu müəllif də hesab edir ki, müəllim-şagird münasibətlərinin inkişaf etdirilməsi üçün reflektiv praktikalar müəllim hazırlığı və peşəkar inkişaf proqramlarında tətbiq edilməlidir. Bu yanaşma, müəllimlərin şagirdlərlə münasibətlərinə daha dərindən nəzər salmasına və şüurlu şəkildə münasibətlərin ədalətli və pozitiv istiqamətdə formalaşmasına imkan yarada bilər.

**Metodologiya**

Tədqiqat metodu: Bu tədqiqatın aparılmasında keyfiyyət tədqiqat metodundan istifadə olundu. Keyfiyyət tədqiqat metodu sosial hadisələri dərin və kontekstual şəkildə araşdırmağa imkan verən elmi yanaşmadır (Creswell & Creswell, 2018). Creswell-ə (2014) görə, keyfiyyət tədqiqatları mətn və təsvir

məlumatlarına əsaslanaraq, mövzuların, nümunələrin və iştirakçıların fərdi təcrübələrinin təhlilini əhatə edir. Bu metodologiya, məlumatların daha geniş və zəngin interpretasiyasını təmin edir. Kəmiyyət tədqiqat metodundan fərqli olaraq, keyfiyyət tədqiqat metodu iştirakçıların fikir və təcrübələrini dərin şəkildə başa düşməyi hədəfləyir.

Bu tədqiqatda keyfiyyət tədqiqat metodu çərçivəsində fenomenoloji yanaşmadan istifadə olundu. Fenomenoloji tədqiqat növü, bir qrup insanın müəyyən bir hadisə və ya təcrübə ilə bağlı yaşantılarını və bu yaşantılara verdikləri mənaları öyrənməyə yönəlmiş keyfiyyət tədqiqat metodunun növüdür. Fenomenologiyanın məqsədi iştirakçıların təcrübələrini onların baxış bucağından araşdıraraq, həmin təcrübələrin mahiyyətini ortaya çıxarmaqdır (Creswell, 2013). Bu yanaşmanın tətbiqi tədqiqatın əsas məqsədinə-müəllim və şagirdlərin qarşılıqlı münasibətlərinin onların öyrənməsində rolunu araşdırmağa uyğun gəlir. Fenomenoloji keyfiyyət tədqiqat növünün seçilməsi tədqiqatın dərinliyini və iştirakçıların təcrübələrinin daha zəngin interpretasiyasını təmin etdi.

Data toplama texnikası: Tədqiqat işində keyfiyyət tədqiqat metodunun yarı strukturlaşdırılmış fərdi müsahibə və qrup müsahibə üsullarından istifadə edildi. Müsahibə, əsas mövzu və tədqiqat sualları haqqında anlayışı inkişaf etdirmək üçün tədqiqatçı və subyekt arasında söhbəti əhatə edir (Creswell & Creswell, 2018). Qrup müsahibələri isə, bir neçə iştirakçının birlikdə müsahibə olunmasıdır. Qrup müsahibələrində iştirakçı sayı adətən 3–5 nəfərdən ibarət olur, bu da hər bir iştirakçının bərabər şəkildə iştirak etməsi və qarşılıqlı əlaqədə olması üçün imkan yaradır (Stewart & Shamdasani, 2014). Taber (2013) qeyd edir ki, bəzi şagirdlər araşdırmaçı ilə tək deyil, cütlər və ya qruplar şəklində, xüsusilə də dostları ilə birlikdə müsahibə olunanda daha rahat danışırlar. Qrup müsahibələri həmçinin bir şagirdin şərhlərinin digərini stimullaşdırmasına, bəlkə də başqa cür ortaya çıxmayacaq məlumatların üzə çıxmasına imkan yaradır (Taber, 2013). Yarı strukturlaşdırılmış müsahibə əsas üsul olaraq seçilib, məlumatlar bu yolla toplanıb və təhlilləri təqdim edildi. Yarı strukturlaşdırılmış müsahibələr iştirakçılardan məlumat toplamaq üçün çevik, lakin sistematik yanaşmanı əhatə edən data toplama

texnikasıdır (Babbie, 2020). Yarı strukturlandırılmış müsahibə tədqiqatçıya verilən cavablar əsasında əlavə suallar yaratmağa imkan verir (Kvale & Brinkmann, 2009).

Tədqiqat işində məlumatların toplanması üçün iki tədqiqat alətindən istifadə edildi: fərdi müsahibə protokolu və qrup müsahibə protokolu. Tədqiqat alətlərini tərtib edərkən mövzuya aid olan ədəbiyyat hərtərəfli araşdırıldı.

Alətlərin validliyini yoxlamaq məqsədilə hazırlanan müsahibə protokolları müstəqil bir ekspert tərəfindən ətraflı şəkildə qiymətləndirilmək üçün göndərildi. Tədqiqat alətlərinin etibarlılığını təmin etmək məqsədilə həm müəllimlər, həm də şagirdlər arasında sınaqdan keçirildi.

Tədqiqat iştirakçıları və onların seçimi: Bu tədqiqatın iştirakçıları Gürcüstanın Marneuli rayonunda rahat seçmə üsulu ilə müəyyən edilmiş iki orta məktəbdən müəllimlər və şagirdlərdən ibarət idi. Rahat seçmə, əlçatanlıq və ya rahatlıq əsasında seçmə üsuludur (Privitera və Ahlgrim-Delzell, 2019). Seçilən iki orta məktəbdən müəllimləri və şagirdləri seçmək üçün sadə təsadüfi seçmə texnikası tətbiq edildi. Sadə təsadüfi seçmə əhalidəki bütün fərdlərin seçilmək şansının bərabər olduğu seçmə üsuludur (Privitera və Ahlgrim-Delzell, 2019). Sadə təsadüfi seçmədən öncə müəllimlərin müxtəlif yaş, cins, iş təcrübəsi kimi meyarlarla fərqlənməsini təmin etmək üçün həmin məktəblərin 10-11-ci siniflərində müxtəlif fənləri tədris edən müəllimlər arasında yoxlama siyahısı edildi.

Tədqiqatda ümumilikdə 14 iştirakçının iştirakı nəzərdə tutulmuşdur. Bunlardan 4-ü müəllim, 10-u isə şagirdlər idi. Tədqiqatda iştirak edən müəllimlər 35-55 yaş aralığında, 10-11-ci siniflərdə ayrı-ayrı fənləri tədris edən, müxtəlif pedaqoji təcrübəyə malik qadın və kişilərdən ibarət idi. Şagirdlər isə 16-17 yaş arasında olan, 10-11-ci sinifdə təhsil alan qız və oğlanları təşkil edirdi.

Datanın toplanması: Məlumatların toplanması prosesi üzbəüz formatda təşkil edildi, fərdi müsahibələr və qrup müsahibələri vasitəsilə həyata keçirildi. Bu müddət ərzində iştirakçılar tədqiqatın mövzusuna dair fikirlərini və münasibətlərini əks etdirən sualları cavablandırdılar.

Müsahibələrə başlamazdan əvvəl tədqiqatın məqsədi iştirakçılara ətraflı izah edildi və onların könüllü

razılığı əsasında iştirakları təmin olundu. İştirakçıların məxfiliyinə ciddi riayət edildi və bu məqsədlə təsadüfi seçim əsasında müəyyən edilən müəllimlərlə fərdi müsahibələr, şagirdlərlə isə qrup müsahibələri təşkil olundu.

Fərdi müsahibələr üzbəüz formatda həyata keçirildi və hər biri təqribən 30 dəqiqə davam etdi. Şagirdlərlə qrup müsahibələri isə hər birində 5 nəfər olmaqla, iki dəfə üzbəüz həyata keçirildi və hər biri təxminən 60 dəqiqə davam etdi.

Üzbəüz müsahibələr zamanı cavabların transkripsiyasının dəqiq və tam şəkildə təmin edilməsi üçün iştirakçıların icazəsi ilə səs yazısı cihazlarından istifadə olundu. Bununla yanaşı, Creswell (2014) tərəfindən vurğulandığı kimi, texniki nasazlıqların qarşısını almaq və əlavə detalları qeyd etmək üçün tədqiqatçının qeydlər aparması tövsiyə olunur. Bu tövsiyəni nəzərə alaraq, bütün üzbəüz müsahibələrdə, həm fərdi, həm də qrup şəklində aparılan müsahibələrdə, detallı qeydlər aparıldı. Bu yanaşma, məlumatların daha dəqiq transkripsiyası və təhlili üçün zəmin yaratdı və tədqiqatın etibarlılığını artırdı.

Datanın təhlili: Tədqiqatda əldə olunan məlumatların təhlili üçün tematik analiz metodu tətbiq edildi. Tematik analiz keyfiyyət tədqiqatlarında istifadə olunan bir təhlil metodudur. Tematik təhlil keyfiyyət yönümlü məlumatların sistemli şəkildə təhlil edilməsi üçün istifadə olunan əsas metodlardan biridir (Babbie, 2013). Earl Babbiyə (2013) görə bu təhlil üsulu aşağıdakı ardıcıl mərhələləri əhatə edir:

**Datanın toplanması və hazırlanması:** Araşdırmanın məqsədinə uyğun olaraq ilkin məlumatlar toplandı. İlk addımda, toplanmış məlumatlar oxundu və başa düşüldü. Bu mərhələdə qeydlər və ya müsahibə transkriptləri üzərində ilkin iş aparıldı.

**Kodlaşdırma:** Məlumatları təhlil etmək üçün başlanğıc kodları yaradıldı. Bu kodlar, məlumatların müəyyən hissələrini təmsil edən qısa ifadələr və ya sözlərdən ibarət idi.

**Kateqoriyaların formalaşdırılması**: Eyni və ya oxşar kodlar ümumi anlayışlar altında birləşdirilərək kateqoriyalar yaradıldı. Bu mərhələ kodlar arasında əlaqələrin müəyyənləşdirilməsinə kömək etdi.

**Mövzuların formalaşdırılması:** Kateqoriyalar əsas götürülərək daha geniş və ümumi mövzular

halına gətirildi. Bu mərhələdə məlumatların əsas mövzuları seçildi.

**Mövzuların təhlili və yazılması:** Yaradılan mövzular ətraflı şəkildə təhlil edildi və nümunələrlə (sitatlarla) dəstəklənərək tədqiqatın məqsədinə uyğun şəkildə təqdim edildi.

Bu metod, iştirakçıların fikirlərini dərinliklə araşdırmağa və tədqiqat suallarına uyğun olan əsas nəticələri strukturlaşdırmağa imkan yaratdı. İştirakçıların cavablarından spesifik cümlələrin tədqiqat üçün əhəmiyyətli və dəyərli olduğu müəyyən edildi və həmin cümlələr orijinal formada sitat kimi təqdim edildi. Tapıntılar və analiz bölməsində yer alan bu sitatlar təqdim olunan məlumatların daha aydın, real və dərindən təsvir edilməsinə imkan yaratdı. Sitatların istifadəsi zamanı onların dəqiq və kontekstual uyğunluğuna xüsusi diqqət yetirildi. Bu yanaşma yalnız tədqiqatın əsas mövzularını vurğulamaqla kifayətlənmədi, eyni zamanda iştirakçıların perspektivlərini birbaşa olaraq tədqiqat nəticələrində əks olunmasını təmin etdi.

Etik qaydalara riayət və anonimliyin təmin edilməsi: Tədqiqatın etibarlılığını və iştirakçıların hüquqlarını qorumaq məqsədilə bir sıra etik qaydalara ciddi riayət edildi. Müsahibələrə başlamazdan əvvəl, iştirakçılara tədqiqatın məqsədi, əhatə dairəsi və məlumatların necə istifadə olunacağı barədə ətraflı izah verildi. Bu, iştirakçıların tədqiqatın hər hansı bir mərhələsində məlumatlarının necə istifadə edildiyinə dair tam məlumat sahibi olmalarını təmin etdi. İştirakçılara həmçinin, tədqiqatın mahiyyətini başa düşmələri üçün müvafiq məlumatlar təqdim edildi.

Tədqiqatın bütün mərhələlərində könüllü razılıq prinsipi əsas götürüldü. İştirakçılar öz razılıqlarını, şərtsiz olaraq könüllü şəkildə və məlumatlı şəkildə verdilər. Tədqiqatın məqsədləri, mümkün riskləri, iştirakçıların hüquqları və tədqiqatda iştirak etməkdən imtina imkanları haqqında ətraflı məlumat verildikdən sonra, iştirakçılar tərəfindən razılıq forması imzalandı. Bu sənəddə iştirakçının tədqiqatın bütün mərhələlərində iştirakı və təqdim etdiyi məlumatların necə istifadə olunacağı ilə bağlı razılığı öz əksini tapırdı. Tədqiqatın bütün mərhələlərində iştirakçıların məxfiliyi və anonimliyi qorundu. Müsahibələrdə iştirak edən hər bir şəxsin kimliyi, həmçinin müsahibə zamanı verilən fikirlər yalnız

tədqiqatçı tərəfindən istifadə edildi. İştirakçıların kimliklərinin açıqlanmaması üçün müxtəlif tədbirlər görüldü. Məsələn, müsahibə materialları və nəticələr anonimləşdirildi, yəni iştirakçılara aid hər hansı bir şəxsi məlumat (adlar, məktəbin adı və s.) gizli saxlanıldı. İştirakçılar, bu tədbirləri başa düşdükdən sonra, anonimliyə riayət ediləcəyi barədə təsdiqlərini imzaladılar.

Tədqiqatçı, müsahibələr zamanı açıq və şəffaf bir yanaşma nümayiş etdirdi və iştirakçılardan heç bir şəkildə zorla və ya manipulyasiya ilə məlumat toplamağa çalışmadı.

Tədqiqatın məhdudiyyətləri: Bu tədqiqatın əsas məhdudiyyətlərindən biri Gürcüstanda yalnız bir bölgədə- Marneuli rayonunda aparılması ilə bağlıdır. Tədqiqat işi həmin bölgədə iki orta məktəbdə aparıldı və bu, təmsilolunma baxımından müəyyən məhdudiyyətlər yarada bilər. İştirakçıların tam olaraq hədəf əhalini əks etdirməməsi nəticəsində əldə olunan məlumatlar, Gürcüstandakı bütün məktəblərin vəziyyətini ümumiləşdirmək üçün kifayət etməyə bilər. Məktəblərin rahat seçmə üsulu ilə seçilməsi də tədqiqatın məhdudiyyətləri arasında yer ala bilər, çünki rahat seçmə əlçatanlıq və ya komfort əsasında həyata keçirilən bir seçmə üsuludur (Privitera & Ahlgrim-Delzell, 2019).

**Tapıntılar**

Müəllimlərlə aparılan müsahibələrin tematik təhlili nəticəsində müəyyən edilmiş beş əsas mövzu Cədvəl 1-də təqdim olunmuşdur.

**Cədvəl 1:** Tədqiqatın mövzuları

| S/N | Mövzu adı |
|---|---|
| Mövzu 1 | Müəllim-şagird münasibətlərini formalaşdıran əsas amillər |
| Mövzu 2 | Müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşamalar |
| Mövzu 3 | Müəllim-şagird münasibətlərinin öyrənmədə rolu (Müəllim baxış və təcrübəsinə əsasən) |
| Mövzu 4 | Müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri |

| Mövzu 5 | Müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi yolları |
|---|---|

Aşağıda təqdim olunan hissədə tədqiqat zamanı əldə edilən kodlar və bu kodlardan formalaşan kateqoriyalar və mövzular ətraflı şəkildə təqdim edilmişdir. Hər bir kateqoriya və mövzuya uyğun olaraq, iştirakçıların ifadələrindən seçilmiş nümunəvi sitatlar verilmiş, həmçinin bu kateqoriya və mövzularla bağlı aparılan təhlil və şərhlər də ardıcıllıqla yer almışdır.

## 1.1 Müəllim-şagird münasibətlərini formalaşdıran əsas amillər

**Cədvəl 2:** Mövzu 1- Müəllim-şagird münasibətlərini formalaşdıran əsas amillər

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərini formalaşdıran əsas amillər | Səmimiyyət, dəstək və dostluq əsaslı münasibət | Səmimiyyət, dürüstlük, dəstək, hörmət, inam, dəyər, sevgi, rahatlıq, dostluq, etibar, empatiya, səmimi münasibət, şagirdin inamı, şagirdin rahatlığı, şagirdin özünü dəyərli hiss etməsi, şagirdin özünü yetişkin hiss etməsi, şagirdin özünü rahat hiss etməsi, müəllimin dost kimi olması, müəllimin şagirdə sevgi ilə yanaşması, müəllimin dəstəyi, səmimiyyətin təşviqi, doğru davranışların təşviqi, hörmət üzərində qurulan münasibət |
| | İnam və ya etibar əsaslı münasibət | Qorxu, yalan, inamsızlıq, sərtlik, inam, hörmət, münasibət, yanaşma, qorxunun yalan doğurması, qorxuducu yanaşma, qorxu əsaslı münasibət, qorxu və inamsızlıq, səmimiyyətdən gələn hörmət, inamdan doğan hörmət, qorxudan qaynaqlanan hörmət |

Müəllim-şagird münasibətlərini formalaşdıran əsas amillər mövzusu; səmimiyyət, dəstək və dostluq əsaslı münasibət, inam və ya etibar əsaslı münasibət olmaqla iki kateqoriya altında verilmişdir.

**Səmimiyyət, dəstək və dostluq əsaslı münasibət**

Səmimiyyətə, dəstəyə və dostluğa əsaslanan müəllim-şagird münasibətləri şagirdlərin özünə inamının və psixoloji rahatlığının artmasına, eyni zamanda onların özlərini dəyərli və sosial baxımdan yetişkin fərdlər kimi hiss etmələrinə müsbət təsir göstərdiyi qeyd olunur. Bu kateqoriyada;

*M1: "Müəllim-şagird münasibətləri şagirdlə müəllim arasında olan əlaqələrdir ki, bu da bilavasitə həm müəllimdən, həm də şagirddən asılıdır. Müəllim şagirdə qarşı nə qədər səmimi və dəstəkverici münasibət göstərsə, şagird özünə inamı o qədər çox artırar və nəticədə özünü aktuallaşdıra bilər."*

*M2: "Müəllim- şagird münasibəti öyrədənlə öyrənən arasında olan bir ünsiyyətdir və bu ünsiyyət əsasən səmimiyyət və hörmət əsasında qurulmalıdır."*

*M4: "Ümumiyyətlə, elə olmalıdır ki, şagirdlər özlərini yetişkin kimi hiss eləsin. Şagirdimə dost kimi yanaşıram ki, çəkinmədən hər bir problemini mənimlə bölüşə bilsin. Əsas odur şagird özünü dəyərli hiss eləsin. Bu təkcə akademik sahə ilə bağlı deyil, dərslərdən kənarda da belədir."*

Tədqiqat iştirakçılarının fikirlərindən də göründüyü kimi, müəllim-şagird münasibətləri sadəcə akademik yönlü əlaqə ilə məhdudlaşmır, eyni zamanda şagirdlərə sosial və emosional baxımdan dəstək verir. M1 nömrəli iştirakçı münasibətlərin ikitərəfli olduğunu vurğulayaraq qeyd edir ki, müəllimin səmimi yanaşması və dəstəyi şagirdin özünə olan inamını artırır və onun potensialını tam şəkildə reallaşdırmasına şərait yaradır. Bu fikir, müəllim münasibətinin şagirdin şəxsiyyətinin formalaşmasında mühüm rol oynadığını göstərir. M2 isə bu münasibətləri öyrədənlə öyrənən arasında qurulan bir ünsiyyət kimi dəyərləndirir və bu ünsiyyətin əsas sütunlarını səmimiyyət hörmət və dəstək kimi görür. Bu vurğulama münasibətlərin keyfiyyətinin pedaqoji prosesin effektivliyinə birbaşa təsir etdiyini göstərir. M4 nömrəli iştirakçının fikirləri isə münasibətlərin daha da dərin bir səviyyədə qurulduğunu əks etdirir. O, şagirdi yalnız öyrənən kimi deyil, eyni zamanda sosial baxımdan yetkin bir fərd kimi qəbul etdiyini bildirir. Şagirdlərlə dostcasına münasibət qurmağın onların özünü dəyərli və

əhəmiyyətli hiss etməsinə gətirib çıxardığını qeyd edir. M4-ün fikirləri müəllimlərin təkcə akademik deyil, həm də sosial-emosional dəstək rolu daşıdığını vurğulamaq baxımından əhəmiyyətlidir. Bu da göstərir ki, şagirdin müəllimə etibar etməsi, ona öz problemlərini açıq şəkildə ifadə edə bilməsi, təlim prosesində motivasiyanın və emosional rifahın artmasına səbəb olur.

**İnam və ya etibar əsaslı münasibət**

Bəzi iştirakçılar isə müəllim-şagird münasibətlərinin qorxuya və sərtliyə deyil, qarşılıqlı inama əsaslanmalı olduğunu vurğulayıblar. Bu kateqoriyada müsahibə iştirakçılarından biri-M3 müəllim-şagird münasibətində səmimiyyətin və sevgi dolu yanaşmanın nə qədər vacib olduğunu belə ifadə etmişdir:

> Müəllim özünü şagirdlərə sevdirməlidir. Şagirdlər müəllimin onlara olan səmimi və sevgi dolu münasibətlərini hiss edirlər. Hal-hazırda bir az yaşlı müəllimlər fərqli yanaşmaları daha üstün tuturlar. Sərt olmaq, disiplinli olmaq və s. Müəllim-şagird münasibəti səmimi olmalıdır və şagird müəllimin yanında özünü qorxaraq hiss etməməlidir. Müəllim şagirdlərə hisslərini, fikirlərini, düşüncələrini rahat ifadə edəcək şərait yaratmalıdır. Eyni zamanda səmimi münasibətin özəliklərindən biri də odur ki, şagird özünü sərbəst və dürüst olaraq ifadə edə bilir. Ancaq səmimi deyil, sərt münasibətlər, şagirdlərin yalan danışmağına da yol açır. Bu tək müəllim-şagird münasibətində deyil, ümumiyyətlə, valideyn-uşaq münasibətində də eynidir. Qorxu şagirdləri yalan danışmağa meyilləndirən amillərdən biridir. Amma səmimi və isti münasibət onları həqiqətə, dürüstlüyə və doğruluğa meyilləndirən bir amildir.

Bu cavabdan aydın görünür ki, müəllimin münasibət forması şagirdlərin davranışına və emosional reaksiyalarına birbaşa təsir edir.

*M3: "Şagirdlərlə- mən öz tərəfimdən desəm, daha isti, daha səmimi münasibətim var. Mənə görə səmimiyyət daha üstündür, çünki səmimiyyətdən gələn hörmət, inam qorxudan gələn hörmətdən daha dərin, daha üstün və daha daim olduğunu düşünürəm".*

M3 nömrəli iştirakçının fikirlərinə əsasən, müəllim-şagird münasibətləri səmimi, anlayışlı və mehriban olmalıdır. Onun fikrincə, şagirdlər müəllimin onlara necə yanaşdığını hiss edirlər və bu

münasibət onların dərslərə marağına, davranışlarına və müəllimə olan inamına təsir edir. O qeyd edir ki, bəzi müəllimlər sərtliyi və qayda-qanunu daha üstün tutsalar da, bu cür yanaşma şagirdlərdə qorxu yaradır və onları müəllimlə açıq danışmaqdan çəkindirir. Hətta bu, şagirdlərin yalan danışmasına belə səbəb ola bilər. M3 hesab edir ki, səmimi və isti münasibət olan mühitdə şagirdlər özlərini daha rahat hiss edir, fikirlərini sərbəst şəkildə ifadə edə bilirlər. Onun sözlərinə görə, səmimiyyətdən yaranan hörmət və inam, qorxudan doğan itaətdən daha dəyərli və davamlıdır. Bu fikir göstərir ki, müəllim- şagird münasibətləri təkcə sinif mühitində məhdudlaşmır, həm də şagirdin psixoloji inkişafına və şəxsiyyətinin formalaşmasına da təsir edir.

## 1.2 Müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşmalar

**Cədvəl 3:** Mövzu 2- Müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşmalar

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşmalar | Fərdi Yanaşma | Fərdilik, individuallıq, ehtiyaclar, müxtəliflik, fərdi yanaşma, fərqli ailə mühiti, fərqli tərbiyə, psixoloji vəziyyət, şagirdin ehtiyacları, mühitin təsiri, eyni yanaşmanın uyğunsuzluğu, ehtiyac yönümlü yanaşma |
| | Rahat və açıq kommunikasiyaya əsaslanan yanaşma (sərbəst mühit) | Sərbəstlik, dinləmə, ünsiyyət, mühit, isti münasibət, dostluq, rahatlıq, sərbəst mühit, dost kimi münasibət, aktiv dinləmə, stresssiz ünsiyyət, şagirdin özünü ifadə edə bilməsi, isti və rahat ünsiyyət mühiti, aktiv şəkildə qulaq asmaq, çəkinmədən münasibət qurmaq |

Müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşmalar mövzusu; fərdi yanaşma, rahat və açıq kommunikasiyaya əsaslanan yanaşma (sərbəst mühit) olmaqla iki kateqoriya altında

verilmişdir.

**Fərdi yanaşma**

Aparılan təhlil nəticəsində əldə olunan kodlar göstərir ki, iştirakçıların əksəriyyəti müəllim-şagird münasibətlərinin qurulmasında fərdi yanaşmanı üstün hesab ediblər. Bu kateqoriyada;

*M1: "Şagirdlərimlə çalışıram, səmimi münasibət quram, amma hər şagirdə eyni cür yanaşmaq olmaz. Hər bir şagirdə fərdi yanaşmaq lazımdır. Şagirdlər fərqli ailədən, fərqli tərbiədən, fərqli mühitdən gəlirlər və ona görə də çalışmaq lazımdır ki, hər bir şagirdə fərqli yanaşaq".*

*M3: "Mən çalışıram ki fərdi yanaşmalardan istifadə edim. Ona görə ki, hər bir şagird individual olaraq fərqlidir".*

*M4: "İndividuallıq qorunmalıdır. Fərdi yanaşma çox vacibdir. Hər şagirdin özünün ehtiyacları, bilik səviyyəsi, psixoloji vəziyyəti var. Ona görə fərdi yanaşmaq məncə vacibdir. Yəni, o uşağın olduğu vəziyyəti nəzərə almaq lazımdır. Hamı ilə eyni cür münasibət, təbii ki, nəticə verməz."*

Müəllimlərin fikirlərindən aydın olur ki, onlar şagirdlərlə münasibət qurarkən fərdi yanaşmanı çox vacib hesab edirlər. Onlar bildirirlər ki, hər bir şagird fərqli ailə tərbiyəsi, mühit və psixoloji xüsusiyyətlərlə məktəbə gəlir. Buna görə də bütün şagirdlərə eyni şəkildə yanaşmaq düzgün deyil, həm də bu nəticə verməz. Müəllimlər hesab edirlər ki, şagirdin bilik səviyyəsi, ehtiyacları və emosional durumu nəzərə alınmalıdır. Həm səmimi, həm də fərdi yanaşma münasibətlərin keyfiyyətini artırır və öyrənmə prosesinə müsbət təsir göstərir.

**Rahat və açıq kommunikasiyaya əsaslanan yanaşma (sərbəst mühit)**

İştirakçılar münasibətlərin qurulmasında rahat və açıq kommunikasiyaya əsaslanan yanaşmanın vacibliyini də vurğuladılar. Bu kateqoriyada;

*M2: "Şagidlərimlə münasibəti hörmət üzərində qururam. Həmişə çalışıram ki, şagirdlər çəkinmədən suallarını mənə versinlər. Aramızdakı ünsiyyət mümkün qədər effektiv olsun . Müsbət yanaşmadan istifadə olunmalıdır ki, şagirdlər özlərini sərbəst hiss etsinlər. Sərbəst bir mühitdə həm öyrətmək asandır, həm də öyrənmə prosesi daha səmərəli olur".*

*M4: "Şagirdlərimlə həmişə dost kimi olmuşam, həmişə problemlərini aktiv şəkildə dinləmişəm. Aktiv şəkildə qulaq asmaq o deməkdir ki, sənin dediklərin mənim üçün çox vacibdir, çox dəyərlidir. Məsələn, məncə, mən şagirdlərin hər bir dediyinə hörmət edirəm. Səhv də desə, düz də desə."*

Müəllimlərin fikirləri göstərir ki, müəllim-şagird münasibətlərinin uğurlu olması üçün rahat və açıq ünsiyyət çox vacibdir. Müəllim sinifdə elə bir mühit yaratmalıdır ki, şagirdlər özlərini gərgin və qorxu içində deyil, sərbəst və güvəndə hiss etsinlər. Şagird yalnız o zaman öz fikirlərini, problemlərini və hisslərini müəllimlə açıq şəkildə paylaşa bilir. Bu cür açıq ünsiyyət münasibətləri daha da gücləndirir və şagirdin müəllimə olan inamını artırır. Müəllimin şagirdləri dinləməsi və onların fikirlərinə dəyər verməsi şagirdlərdə "mən önəmliyəm" hissini yaradır. Bu da həm sosial, həm də tədris baxımından sağlam və səmərəli bir əlaqənin formalaşmasına səbəb olur. Açıq və rahat kommunikasiya olmadan münasibətlərin güclənməsi və öyrənmə prosesinin effektivliyi çətinləşə bilər.

### 1.3 Müəllim-şagird münasibətlərinin öyrənmədə rolu

**Cədvəl 4:** Mövzu 3- Müəllim-şagird münasibətlərinin öyrənmədə rolu (Müəllim baxış və təcrübələrinə əsasən)

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərinin öyrənmədə rolu | Qarşılıqlı pozitiv münasibət və öyrənmə | Səmimi münasibət – dərsdə aktiv iştirak, müsbət münasibət – özünü dəyərli hiss etmə, pozitiv münasibət – öyrənmənin güclənməsi, müəllimə sevgi – fənnə sevgi, ikitərəfli münasibət – öyrənmənin güclənməsi, qarşılıqlı hörmət – öyrənmənin artması, pozitiv ünsiyyət – əhval-ruhiyyə və inamın artması, səmimi münasibət – dərsə maraq, müəllimi sevmək – fənni öyrənmək, sevgi ilə öyrənmək – yaddaşda qalmaq |
| | Emosional təhlükəsizlik və öyrənmə | Gərgin mühit – öyrənmənin alınmaması, rahat atmosfer – öyrənmənin güclənməsi, hörmətli atmosfer – öyrənmənin güclənməsi, özünüqiymətləndirmə – artım |

Tədqiqatın əsas sualına xidmət edən müəllim-şagird münasibətlərinin öyrənmədə rolu mövzusu; qarşılıqlı pozitiv münasibət və öyrənmə və emosional təhlükəsizlik və öyrənmə olmaqla iki kateqoriya əsasında təhlil edilmişdir.

**Qarşılıqlı pozitiv münasibət və öyrənmə**

Müəllimlər müəllim-şagird arasında qarşılıqlı pozitiv münasibəti öyrənmə prosesində əsas və vacib amil kimi qiymətləndirdilər. Bu kateqoriyada M3 fikirlərini belə ifadə etmişdir;

> Əgər şagird müəllimi sevərsə, o fənni də sevir. Mən özüm bunun əvvəllər də, indi də şahidi olmuşam. Məsələn, sinifdə 20 nəfər varsa, uzağı 4-5-i dərsə qulaq asmır, digərləri isə həqiqətən qulaq asır və öyrənirlər. Həmişə bu nəticəyə gəlmişəm ki, şagird müəllimi doğrudan da sevərsə, onun fənnini də sevəcək, çünki müəllimlə olan münasibət onların öyrənməsində əsas rol oynayan amillərdən biridir.

*M4: "Müəllim şagirdə hörmət etsə, şagirdə özünü dəyərli hiss etdirsə, şagird müəllimi sevər, onun tədris etdiyi fənni sevər və dərsə, fəaliyyətlərə həvəslə qoşular. Pozitiv münasibət, təbii ki, şagirdin öyrənməsində rol oynayır. Şagirdin özünü qiymətləndirməsini artırır, dərsə qoşulmağa, sinifdə fəal olmağa təşviq edir".*

Müəllimlərin fikirlərindən aydın olur ki, müəllim-şagird münasibəti şagirdlərin dərsə marağında və fənni mənimsəməsində böyük rol oynayır. Onlar qeyd edirlər ki, şagird müəllimi sevdikdə, onun fənninə qarşı da müsbət münasibət formalaşır və bu, dərslərə daha aktiv şəkildə qoşulmasına səbəb olur. Müəllim şagirdə dəyər verdikdə, ona hörmət etdikdə, şagird özünü önəmli hiss edir və bu da onun dərsə olan motivasiyasını artırır. Pozitiv münasibət şagirdin özünə inamını gücləndirir, tapşırıqlara yanaşmasını yaxşılaşdırır və ümumilikdə onun sinifdə daha fəal olmasına şərait yaradır. Bu isə onu göstərir ki, pozitiv münasibət təkcə emosional baxımdan deyil, eyni zamanda öyrənmə baxımından da çox önəmlidir.

**Emosional təhlükəsizlik və öyrənmə**

Müəllimlərin düşüncəsinə əsasən qarşılıqlı münasibət həm də şagirdlərin təhlükəsiz hiss etmələrinə səbəb

olur və bu da səmərəli öyrənmə mühiti yaradır. Bu kateqoriyada;

*M2: "Gərgin bir mühitdə nə şagird, nə də müəllim effektiv olmur və iki tərəfli bir münasibət qurulmur. Bir tərəfli münasibət isə o deməkdir ki, şagird öyrənmədiyini soruşmur və belə vəziyyətdə gərilir və öyrənməkdən qaçınır. Nəticədə, öyrətmə və öyrənmə prosesi baş vermir."*

*M1: "Şagirdlə nə qədər sərt danışsan, o şagird çəkinəcək və özünün bildiyini də bəzən danışmağa qorxacaq".*

Tədqiqatda iştirak edən müəllimlərin fikirlərindən aydın olur ki, müəllim-şagird münasibətlərinin xarakteri şagirdin öyrənməsinə birbaşa təsir göstərir. Müəllimlə şagird arasında gərgin, soyuq və ya sərt münasibət formalaşdıqda, bu, şagirdin özünü ifadə etməsinə mane olur. Şagird belə bir şəraitdə susmağa, fikirlərini deməkdən çəkinməyə və dərs prosesində passiv qalmağa meyilli olur. Gərgin mühit öyrənmə istəyi və təşəbbüsünü azaldır, sual vermək və ya fikir bildirmək kimi təbii davranışları belə məhdudlaşdırır.

Əksinə, səmimi, anlayışlı və hörmətə əsaslanan münasibət şagirdin özünü daha güvəndə hiss etməsinə, emosional baxımdan rahatlaşmasına və tədris prosesinə fəal şəkildə qoşulmasına şərait yaradır. Belə mühitdə şagird müəllimdən çəkinmir, suallarını sərbəst şəkildə verir, öz fikrini ifadə edir və özünü daha dəyərli hiss edir. Bu da onun dərsə olan marağını artırır və özünü qiymətləndirmə hissini gücləndirir.

Rahat və hörmətli sinif atmosferi şagirdin öyrənməyə daha motivasiyalı və maraqlı yanaşmasına səbəb olur. Belə münasibətlər yalnız bilik əldə etmə prosesini deyil, həm də şagirdin psixoloji rifahını, özünə inamını və sosial bacarıqlarını inkişaf etdirir. Müəllimlə şagird arasında iki tərəfli, açıq və müsbət münasibət qurulduqda, öyrənmə daha effektiv, davamlı və mənalı olur.

### 4.4 Müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri

**Cədvəl 5:** Mövzu 4- Müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri

| Mövzu adı | Kateqoriya | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri | Ünsiyyətin keyfiyyəti və nəticə | Yaxşı ünsiyyət- yüksək nailiyyət,düzgün ünsiyyətin olmaması- aşağı nəticə, yaxşı qurulmuş ünsiyyət- akademik uğur, zəif ünsiyyət- nailiyyətin azalması, səmimi yanaşma- nailiyyətin artması, qorxu olmaması- müsbət təsir, nailiyyətə müsbət təsir |

Müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri mövzusu; ünsiyyətin keyfiyyəti və nəticə olmaqla yalnız bir kateqoriya altında verilmişdir.

**Ünsiyyətin keyfiyyəti və nəticə**

Müəllimlərin fikirlərinə görə, müəllim-şagird münasibətləri pozitiv və dəstəkləyici olduqda bu, şagirdlərin akademik nəticələrinə müsbət təsir göstərir. Əksinə, əgər münasibətlər sərt, soyuq və ya gərgin olarsa, bu, şagirdlərin öyrənmə motivasiyasını azaldır və nəticədə onların akademik göstəriciləri zəifləyir. Bu kateqoriyada M2, M1, M3 müəllim-şagird münasibətlərinin akademik nailiyyətə təsiri ilə bağlı fikirlərini belə ifadə etdilər:

> Təcrübəmə əsasən deyə bilərəm ki, münasibətlər akademik nailiyyətə birbaşa təsir edir. Əgər şagird müəllimlə ünsiyyət qura bilmirsə və yaxud müəllim düzgün ünsiyyət qurmursa, onda akademik nailiyyət təbii ki, əldə oluna bilmir. Yəni, mən deyə bilərəm ki, münasibətlərin akademik nailiyyətə birbaşa təsiri var. Müəllim-şagird münasibətləri nə qədər yaxşı olsa, bir o qədər nailiyyət yüksək olur və ya əksinə, ünsiyyət qurulmadısa və yaxud düzgün qurulmadısa, onda akademik nailiyyət aşağı olur.

Əgər şagird müəllimi daha yaxşı tanıyırsa və daha yaxşı ona münasibət bəsliyirsə, onun dərsini də yaxşı oxuyacaq. Müəllimlə-şagird arasındakı o səmimi münasibət davam eləməlidir ki, şagird dərsə də hazırlaşsın. Yəni, sən şagirdə səmimi münasibət bəsləyəndə şagirdin əhval-ruhiyyəsi artır. Şagirdin əhval-ruhiyyəsi artanda, özünü aktuallaşdıra bilir, özünə inanır və özünə inamına da sahib çıxır.

Əgər şagird dərsə adaptasiya olursa, müəllimin dərsini sevirsə, müəllimlə münasibəti pozitivdirsə, o akademik nailiyyətə əlbəttə ki, yüksək təsir edir. Çünki hisslərə toxunmayan heç bir şey insanın ağılında qalmaz. Ona görə də əgər bir şagird hər hansı bir fənnə sevgi ilə yanaşırsa, o fənni əlbəttə ki, mənimsəyir, öyrənir və o sahədə uğurlar əldə edir.

M4 də həmçinin bununla bağlı fikirlərini belə əsaslandırdı:

*M4: "Müəllimlə-şagirdin münasibətləri yaxşı olduqda onların göstəriciləri də artır. Şagird müəllimi sevirsə, istəməsə də müəllimə hörmət əlaməti olaraq onun fənnini oxuyur və nailiyyətlər əldə edir."*

Müəllimlərin fikirlərinə əsasən, müəllim-şagird münasibətləri yalnız şagirdin emosional rifahına deyil, eyni zamanda onun akademik nailiyyətlərinə də birbaşa təsir göstərir. Müsahibələrdən aydın olur ki, şagird müəllimini sevirsə, ona qarşı səmimi münasibət bəsləyirsə və bu münasibət qarşılıqlı şəkildə hörmət və anlayış üzərində qurulubsa, həmin şagird dərslərə daha həvəslə qoşulur, müəllimin fənninə maraq göstərir və nəticədə daha yüksək nailiyyətlər əldə edir. Müəllimlər qeyd edirlər ki, münasibət nə qədər mehriban və dəstəkləyicidirsə, öyrənmə prosesi bir o qədər rahat və məhsuldar olur. Səmimi və anlayışlı münasibət şagirdin özünü güvəndə hiss etməsinə, səhv etməkdən çəkinməməsinə və fikirlərini sərbəst şəkildə ifadə etməsinə şərait yaradır. Bu cür mühitdə şagird özünü daha dəyərli hiss edir, motivasiyası artır və öyrənmə daha təsirli olur. Müəllimlərin cavablarından görünür ki, müəllimin pozitiv münasibəti, şagirdin hisslərinə, ehtiyaclarına və fərdi xüsusiyyətlərinə hörmətlə yanaşması, onların dərslərə marağını və ümumi nailiyyətlərini yüksəldir.

### 1.4 Müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi yolları

**Cədvəl 6:** Mövzu 5- Müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi yolları

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi yolları | Standartların əhəmiyyəti və obyektivlik | Standartların müəyyənləşdirilməsi, standartların tətbiqi, favoritizm, subyektiv yanaşma, obyektivlik, şagirdin qorunması, müəllimin qorunması, əsas meyarlar |
| | Peşəkar inkişaf | Kolleqalarla məsləhətləşmə, kitab oxumaq, məqalələr oxumaq, özünü inkişaf etdirmək |
| | Daimi və ikitərəfli kommunikasiya | Sual vermək, fikirlərini öyrənmək, şagirdin adını vurğulamaq, dərs sonrası söhbətlər |
| | Valideynin rolu və dəstəyi | Valideyni prosesə cəlb etmək, valideynlərlə əməkdaşlıq, əməkdaşlıq zərurəti |
| | Fərdi yanaşma və müşahidə | Fərdi xüsusiyyətləri nəzərə almaq, fərdiləşdirilmiş yanaşma, fərqli dillərlə ünsiyyət, fərqli yanaşmalarla ünsiyyət, problemin səbəblərini müşahidə etmək, problemin səbəblərini analiz etmək |

Müəllim-şagird münasibətləri təkmilləşdirilməsi yolları mövzusu; standartların əhəmiyyəti və obyektivlik, peşəkar inkişaf, daimi və ikitərəfli kommunikasiya, valideynin rolu və dəstəyi, fərdi yanaşma və müşahidə olmaqla beş kateqoriya altında verilmişdir.

**Standartların əhəmiyyəti və obyektivlik**

İştirakçılar, müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsində standartların əhəmiyyətini və obyektivliyi xüsusi vurğuladılar. Bu kateqoriyda M2 fikirlərini aşağıdakı şəkildə qeyd etdi:

> Ümumiyyətlə, müəllim- şagird münasibətləri standart əsasında qurulmalı və inkişaf etdirilməlidir. Hər hansı bir standart yoxdursa, müəllim istədiyini edirsə, şagird də istədiyini edirsə, o zaman belə bir münasibət normal qurula bilmir və inkişaf etmir. Bu da subyektivlik qatır ünsiyyətə ki, subyektivlik maksimum dərəcə az olasıdır, obyektiv yanaşma olasıdır. Obyektiv yanaşmanın da təməli məhz standartlardır. Əgər müəssisədə və yaxud müəssisə deyilsə, müəssisə kənarında da öyrənmə prosesi davam edirsə, onda bəlli standartlar yaradılmalıdır və bu standartlara əsasən münasibətlər qurulmalı və yaxşılaşdırılmalıdır. Müəllim və şagirdin münasibətlərini standartlar tənzimləməlidir. Əgər standart yoxdursa, onda ortaya heç xoş olmayan hallar, məsələn favoritizm halları çıxa bilər. Bunun üçün də bu standartlar həm şagirdi qoruyur, həm də müəllimi ki, ona qarşı nəsə ittihamlar olmasın. Standartlar, dediyim kimi, minimumdur, bu minimum üzərində daha sonra münasibətlər qurula və təkmilləşə bilər.

Bu cavabdan aydın olur ki, müəllim-şagird münasibətlərinin sağlam və davamlı şəkildə formalaşması, təkmilləşməsi üçün müəyyən standartların olması vacibdir. İştirakçının fikrincə, münasibətlər hər iki tərəfin öz istədiyi kimi davranması ilə deyil, müəyyən qayda və çərçivələrə əsaslanaraq qurulmalıdır və inkişaf etdirilməlidir. Əgər münasibətlər təsadüfi və subyektiv şəkildə inkişaf edərsə, bu zaman ədalətsizlik və favoritizm kimi xoşagəlməz hallar ortaya çıxa bilər. Standartlar isə bu cür halların qarşısını almaqla yanaşı, həm müəllimi, həm də şagirdi qoruyan, münasibətlərə obyektivlik gətirən əsas baza rolunu oynayır. Müəyyən edilmiş minimum qaydalar münasibətlərin daha sağlam şəkildə inkişaf etməsinə şərait yaradır və müəllimlə şagird arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətin qurulmasına və yaxşılaşdırılmasına kömək edir.

**Peşəkar inkişaf**

İştirakçılar müəllim-şagird münasibətlərinin inkişafı üçün peşəkar inkişafı vacib hesab etdilər. Bu

kateqoriyada M4 düşüncələrini belə əsaslandırdı:

> Əvvəlcə, bir problem varsa, bu problemi analiz eləyirəm ki, mən nə cür münasibət qurmalıyam ki, bu şagirdin bu hərəkətini, yəni bu davranışını, bu problemi aradan qaldıraq. Nəysə, mənim metodum işə yaramayanda, belə deyək, bir nəticə verməyəndə kolleqalarımdan məsləhət alıram. Ümumiyyətlə, müəllim-şagird arasındakı münasibətlər haqqında məqalələr oxuyuram ki, bu problemi necə həll eləmək olar, necə münasibət qurmaq olar şagirdlə. İnternetdə axtarıram və yaxud bu haqda müəllimləri təkmilləşdirən kitablardan oxuyuram.

İştirakçının cavabı müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi istiqamətində peşəkar və çoxşaxəli yanaşmanı əks etdirir. O, problemin yaranma səbəbini analiz edərək münasibət qurma tərzini bu təhlilə əsasən formalaşdırmağa çalışır. Bu, münasibətlərin təkmilləşdirilməsi üçün düşünülmüş və planlı bir yanaşmadır. Əgər istifadə etdiyi metodlar effektiv olmazsa, alternativ yollar axtararaq həmkarların təcrübəsindən yararlanması və elmi mənbələrə – məqalələrə, təkmilləşdirici kitablara müraciət etməsi onun münasibətləri inkişaf etdirməyə peşəkar, sistemli və davamlı yanaşdığını göstərir. Bu cür yanaşma təkcə problemin həllinə yönəlmir, həm də uzunmüddətli perspektivdə daha sağlam və etibarlı müəllim-şagird münasibətinin qurulmasına xidmət edir. Yəni iştirakçı münasibətləri dəyişdirmək və inkişaf etdirmək üçün həm praktik, həm də nəzəri mənbələrə əsaslanan peşəkar bir yol seçir.

**Daimi və ikitərəfli kommunikasiya**

İştirakçılar müəllim- şagird müansibətlərinin təkmilləşdirilməsi üçün kommunikasiyanı vacibliyini də qeyd etdilər. Bu kateqoriyada M2-nin bununla bağlı fikirləri belə oldu:

> Daim kommunikasiya halında oluruq şagirdlərlə. Şagirddən soruşuram, o nə düşünür, necə yanaşır, məhz problemlər varsa o problemin həllinə necə yanaşır və nə öyrənmək istəyir. Yəni, bu, davamlı bir kommunikasiya olasıdır. İki tərəfli - şagird müəllimdən, müəllim şagirddən daim məlumat almalıdır və bu məlumat əsasında ünsiyyət təkmilləşdirilməlidir. Yəni, bir yeganə yanaşma yoxdur. Daim inkişaf edən, daim təkmilləşən bir tərəfdaşlıqdır.

*M3: "Bəzi şagirdlərlə, məsələn, dərsi bitirdikdən sonra onları maraqlandıran mövzular haqqında*

*söhbətlər, müzakirələr apardıqda və yaxud o barədə maraqlı suallarla müraciət etdikdə münasibətlərimiz daha da inkişaf edir, dəyişir."*

Müəllimlərin fikirlərinə əsasən, müəllim-şagird münasibətlərinin inkişafı və təkmilləşdirilməsi üçün effektiv kommunikasiya əsas amillərdən biridir. Müəllim və şagird arasında davamlı və səmimi dialoqun qurulması bu münasibətlərin möhkəmlənməsinə zəmin yaradır. Şagirdlərlə müntəzəm şəkildə aparılan sual-cavab, fikir mübadiləsi və qarşılıqlı hörmətə əsaslanan ünsiyyət, yalnız dərs prosesini zənginləşdirmir, eyni zamanda etimada əsaslanan sağlam münasibətlərin formalaşmasına kömək edir. Belə ünsiyyət mühiti şagirdin öz fikrini sərbəst ifadə etməsinə, müəllimə isə onun ehtiyac və hisslərini daha yaxşı anlamağa imkan yaradır.

**Valideynin rolu və dəstəyi**

Müəllimlər valideynlərin rolunu da münasibətlərin təkmilləşdirilməsi üçün əsas amil kimi dəyərləndirdilər. Bu kateqoriyada;

*M1: "Valideyni münasibətlərin inkişafına cəlb etmək lazımdır. Əgər müəllim görürsə, çox yaxşı oxuyan şagird, birdən-birə zəifləyir, münasibətlərə qapalı olur və yaxud özünə qapanır, fikrini toplaya bilmir, deməli, onun başqa problemləri var. Burada artıq birbaşa valideyni bu prosesə cəlb eləmək lazımdır".*

Müəllimlərin fikrincə, müəllim-şagird münasibətlərinin inkişafı üçün valideynlərlə əməkdaşlıq vacibdir. Əgər şagirddə qəfil dəyişikliklər – dərsdə zəifləmə, ünsiyyətdən qaçma və ya özünə qapanma müşahidə olunursa, bu, onun başqa problemlərinin ola biləcəyinə işarədir. Belə hallarda valideynin prosesə cəlb olunması müəllim-şagird münasibətlərinin düzgün qurulmasına, yaxşılaşdırılmasına və yaranmış çətinliklərin aradan qaldırılmasına kömək edir. İştirakçılar müəllim və valideyn birgə çalışdıqda, şagirdə daha yaxşı dəstək göstərmək və onunla sağlam münasibət qurmaq, inkişaf etdirmək mümkün olduğunu vurğuladılar.

**Fərdi yanaşma və müşahidə**

Müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi üçün fərdi yanaşma və şagirdin davamlı müşahidəsi də mühüm amil kimi qeyd olunub. Bu kateqoriyada;

*M2: "Çalışıram, hər zaman bu münasibəti təkmilləşdirim. Hər bir şagird fərqlidir, fərqli bir şəxsiyyətdir və bir anda o şəxsiyyətin bütün tərəflərini öyrənmək mümkün olmur. Davamlı olaraq təkmilləşdirmək lazımdır ünsiyyəti, yanaşmanı və yalnız beləcə normal bir ünsiyyət qurula bilir".*

M3 də həmçinin bu fikri dəstəklədi:

> Hər bir şagirdə fərqli şəkildə yanaşma metodu var. Bunu artıq sinif ortamında müşahidə elədiyimiz zaman anlayırıq ki, məsələn, bu şagirdə bu cür yanaşsam daha effektiv olar, daha yaxşı münasibət qurula və inkişaf etdirilə bilər. Məsələn, bəzi şagirdin dərs vaxtı adını tez-tez vurğulayanda daha xoş gəlir, daha diqqətli olur, müəllimə qarşı daha çox sevgi dolu olur.

Müəllimlərin cavablarından aydın olur ki, müəllim-şagird münasibətlərinin inkişafı üçün fərdi yanaşma böyük əhəmiyyət daşıyır. Onlar hər bir şagirdin fərqli xarakterə və ehtiyaclara sahib olduğunu qeyd edirlər və münasibəti buna uyğun qurmağa və təkmilləşdirməyə çalışırlar. Müəllimlər sinif mühitində şagirdləri müşahidə edərək onların davranışlarını və ehtiyaclarını daha yaxşı anlayır, bu müşahidələrə əsaslanaraq münasibət qurma tərzini və ünsiyyət üsullarını fərdiləşdirirlər. Məsələn, bəzən şagirdin adının tez-tez çəkilməsi onun diqqətini artırır və müəllimə qarşı müsbət hisslər formalaşdırır. Bu da göstərir ki, münasibətlərin təkmilləşdirilməsi üçün şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq və uyğun yanaşma seçmək vacibdir.

Müəllimlərin münasibətləri təkmilləşdirmə yanaşmaları kompleks və davamlı bir proses kimi dəyərləndirilir. Bu proses tək bir üsulla deyil, müxtəlif və bir-birini tamamlayan amillərlə formalaşır. Fərdi müşahidə, səmərəli kommunikasiya, valideynlərlə əməkdaşlıq, minimum qaydalar və obyektiv yanaşma və müəllimin davamlı peşəkar inkişafı bu prosesin əsas tərkib hissələridir. Müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq münasibətləri uyğunlaşdırır, eyni zamanda həm nəzəri biliklərə, həm də praktiki təcrübəyə əsaslanan sistemli yanaşmalardan istifadə edirlər. Bu da münasibətlərin təkcə qurulmasını deyil, zamanla inkişaf etdirilməsini və möhkəmləndirilməsini təmin edir.

Şagirdlərlə aparılan müsahibələrin tematik təhlili nəticəsində müəyyən edilmiş dörd əsas mövzu Cədvəl

7-də təqdim olunmuşdur.

**Cədvəl 7:** Tədqiqatın mövzuları

| S/N | Mövzu adı |
|---|---|
| Mövzu 1 | Müəllimlərin şagirdlərə münasibətinin öyrənmə prosesinə təsiri (maraq, dərsə hazırlıq və akademik nailiyyətlər baxımından) |
| Mövzu 2 | Şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu |
| Mövzu 3 | Müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri |
| Mövzu 4 | Müəllim-şagird münasibətlərinin inkişafı (Şagirdlərin fikirləri əsasında) |

Aşağıda təqdim olunan hissədə tədqiqat zamanı əldə edilən kodlar və bu kodlardan formalaşan kateqoriyalar və mövzular ətraflı şəkildə təqdim edilmişdir. Hər bir kateqoriya və mövzuya uyğun olaraq, iştirakçıların ifadələrindən seçilmiş nümunəvi sitatlar verilmiş, həmçinin bu kateqoriya və mövzularla bağlı aparılan təhlil və şərhlər də ardıcıllıqla yer almışdır.

## 1.5 Müəllimlərin şagirdlərə münasibətinin öyrənmə prosesinə təsiri (maraq, dərsə hazırlıq və akademik nailiyyətlər baxımından)

**Cədvəl 8:** Mövzu 1- Müəllimlərin şagirdlərə münasibətinin öyrənmə prosesinə təsiri (maraq, dərsə hazırlıq və akademik nailiyyətlər baxımından)

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Müəllimlərin şagirdlərə münasibətinin öyrənmə | Maraqlara təsir | Pis rəftar-dərsdən soyuma, istəksizlik, yaxşı münasibət-dərsə sevgi, müəllimin sevindirməsi-oxuma motivasiyası, mülayim ünsiyyət, maraq artımı |

| | | |
|---|---|---|
| prosesinə təsiri (maraq, dərsə hazırlıq və akademik nailiyyətlər baxımından) | Dərsə hazırlığa təsir | Yaxşı münasibət - dərsə hazırlığın artması, pis münasibət - hazırlıq istəksizliyi, motivasiya vermək- təkrar oxuma, müəllimlə pozitiv münasibət- həvəslə hazırlaşmaq |
| | Akademik nailiyyətlərə təsir | Yaxşı münasibət - qiymətlərin yüksəlməsi, pis münasibət - qiymətlərin aşağı düşməsi, sevimli müəllim - yaxşı nəticə, dərsin yaxşı izahı - effektiv öyrənmə |

Müəllimlərin şagirdlərə münasibətinin öyrənmə prosesinə təsiri (maraq, dərsə hazırlıq və akademik nailiyyətlər baxımından) mövzusu; maraqlara təsir, dərsə hazırlığa təsir, akademik nailiyyətlərə təsir olmaqla üç kateqoriya altında verilmişdir.

**Maraqlara təsir**

Şagirdlər qeyd etdilər ki, müəllimlə olan münasibət onların dərsə maraqlarına və öyrənməyə yanaşmalarına, həvəslərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu kateqoriyada;

*Ş3: "Müəllimlə munasibetim pis olanda, marağıma təsir eləyir. Yəni o dərsdən soyuyuram öyrənmək istəmirəm, oxumaq istəmirəm. Münasibət yaxşı olanda, o dərsi oxumaq istəyirəm."*

*Ş7: "Müəllimlə yaxşı münasibətdə olmayanda, marağım azalır, artıq o fənni istəmirəm öyrənmək."*

*Ş8: "Müəllimi sevirəmsə, onun tədris etdiyi fənni də daha çox sevirəm. Yox, əgər müəllimlə münasibətim pisdirsə, dərsə qarşı həvəsim olmur."*

*Ş9: "Müəllimlə münasibətim yaxşı olanda həmin dərsə həvəsim olur. Məsələn, müəllim yaxşı, mülayim danışanda, mehriban rəftar eləyəndə dərsə marağım artır."*

*Ş5:" Şagirdlərə əgər müəllim yaxşı davransa, şagirdlər də onun fənnini daha çox maraqla oxuyarlar."*

*Ş4: "Müəllim şagirdə yaxşı rəftar eləməlidir ki, şagirdin həmin dərsə qarşı həvəsi olsun."*

*Ş1: "Müəllimlər pis rəftar edəndə, şagirdlər də onların dərslərinə qulaq asmırlar, girmək istəmirlər dərslərinə, onda da dərsləri öyrənə bilmirlər."*

Şagirdlərin cavablarından aydın şəkildə görünür ki, müəllimlə qurulan münasibət onların dərsə marağına və öyrənməyə həvəsinə birbaşa təsir edir. Onlar vurğulayırlar ki, müəllimlə münasibətləri yaxşı olduqda dərsə daha böyük həvəs və maraqla yanaşırlar, həmin fənni oxumaq və öyrənmək istəyirlər. Əksinə, müəllimlə münasibətləri zəif və ya soyuq olduqda, həmin dərsdən soyuyurlar, maraqları azalır və öyrənmək istəmirlər. Şagirdlər müəllimin mehriban, anlayışlı və diqqətli davranışını dərsə olan marağı artıran əsas amillərdən biri kimi qeyd edirlər. Bu da göstərir ki, müəllim- şagird münasibətləri şagirdlərin dərsə münasibətini formalaşdırmaqda mühüm rol oynayır.

**Dərsə hazırlığa təsir**

İştirakçılar yalnız maraqlarının deyil, müəllimlə olan münasibətlərin dərsə hazırlıqlarına da təsir etdiyini qeyd etdilər. Bu kateqoriyada;

*Ş1: "Müəllimdən özümə qarşı xoş münasibət görməyəndə, artıq o dərsə hazırlaşmıram"*

*Ş4: "Mənimlə yaxşı rəftar eləməsə, onun dərsinə hazırlıqlı getmək istəmirəm, maraqlı olmuram."* Ş1 və Ş4-də olduğu kimi, Ş5 və Ş9 da dərsə hazırlıqlarının müəllimin onlara qarşı münasibətindən asılı olduğunu ifadə etdilər.

*Ş5: "Müəllimlə olan münasibət dərsə hazırlığa da təsir edir. Müəllim əgər pis davransa, yaxşı davranmasa, onun dərsinə hazırlaşmaq istəmirik."*

*Ş9: "Hazırlığıma demək olar ki, xeyli təsir edir. Yaxşı münasibətdə olduğum müəllimin dərslərinə daha çox həvəslə hazırlaşıram."*

Şagirdlərin cavablarından aydın olur ki, müəllimlə olan münasibətlər təkcə dərsə maraqla deyil, eyni zamanda dərsə hazırlıq səviyyəsi ilə də sıx bağlıdır. Onlar bildirirlər ki, müəllimin onlara qarşı göstərdiyi münasibət müsbət olduqda, dərsə daha həvəslə və motivasiyalı şəkildə hazırlaşırlar. Əksinə, müəllimin soyuq, laqeyd və ya pis rəftarı dərsə hazırlıq istəklərini azaldır. Bu da onu göstərir ki, müəllim-şagird münasibətləri şagirdlərin tədrisə yanaşmasına, məsuliyyət hissinə və davamlı öyrənmə

motivasiyasına birbaşa təsir edən əsas faktorlardan biridir.

**Akademik nailiyyətlərə təsir**

Şagirdlər müəllimlə olan münasibətlərin təkcə maraqlarına və dərsə hazırlıqlarına deyil, həm də akademik nailiyyətlərinə əhəmiyyətli təsir göstərdiyini vurğuladılar. Bu kateqoriyada;

*Ş9: "Müəllim olmasa, onunla yaxşı münasibət olmasa necə öyrənə bilərəm ki. Ona görə də akademik nailiyyətlərimə də təsir edir."*

Ş10, Ş8, Ş6 da müəllimlə olan münasibətin akademik nailiyyətlə yanaşı, marağına, hazırlığına təsirini aşağıdakı kimi ümumiləşdirərək qeyd etdilər.

*Ş10: "Müəllimlə olan münasibət dərsə marağıma, hazırlığıma, akademik nailiyyətlərimə təsir edir." Ş8: "Müəllimlərin mənə qarşı münasibəti həmin fənnə qarşı marağıma, hazırlığıma, akademik nailiyyətlərimə təsir edir."*

*Ş6: "Müəllimlərlə olan münasibət həm dərsə marağıma, dərsə hazırlığıma, həm də akademik nailiyyətlərimə də təsir edir. Nə qədər müsbət davranırlar, rəftar edirlər müəllimlər göstəricilərim artır."*

Şagirdlərin cavablarından görünür ki, müəllimlə olan münasibət yalnız dərsə maraq və hazırlıqla məhdudlaşmır, həm də onların akademik nailiyyətlərinə birbaşa təsir edir. Onlar qeyd edirlər ki, müəllimlə münasibətləri yaxşı olduqda dərsə daha istəklə hazırlaşırlar, bu da nəticə etibarilə qiymətlərinə və ümumi göstəricilərinə müsbət təsir edir. Əksinə, müəllimin şagirdə qarşı soyuq və ya mənfi münasibəti olduqda, şagird həmin fənnə qarşı marağını itirir, hazırlıqsız qalır və bu da akademik uğurlarını azaldır. Şagirdlər vurğulayırlar ki, müəllimin diqqətli, anlayışlı və müsbət münasibəti onlarda motivasiya yaradır və bu motivasiya daha yaxşı nəticələr əldə etməyə kömək edir. Bu da göstərir ki, müəllim-şagird münasibəti təhsilin keyfiyyətində mühüm rol oynayır.

*Ş2: "Müəllim necə münasibət bəsləyirsə, mən də eyni şəkildə davranıram. Amma həmişə çalışıram ki, bütün fənləri mükəmməl şəkildə öyrənim. Mənə şəxsən təsiri yoxdur. Yəni müəllim yaxşı münasibətdə və ya pis münasibətdə olsa belə, mən yenə də onun dərsini oxuyuram."*

Əksər şagirdlər müəllimlə olan münasibətin onların dərsə marağına, hazırlıq səviyyəsinə və akademik nailiyyətlərinə təsir etdiyini bildirsələr də, bir iştirakçı bu fikirlərlə razılaşmadı. O, müəllimlə münasibətlərin öz öyrənmə prosesinə hər hansı bir təsir göstərmədiyini qeyd edərək, bu faktorun onun üçün əhəmiyyətsiz olduğunu vurğuladı. Bu fikir, ümumi yanaşmadan fərqli olaraq, münasibətlərin bütün şagirdlər üçün eyni şəkildə təsirli olmadığını göstərir.

### 1.6 Şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu

**Cədvəl 9:** Mövzu 2- Şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu

| Mövzu adı | Kateqoriyalar | Kodlar |
|---|---|---|
| Şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu | Yaxın münasibətin rolu və sərhədləri | Yaxın müəllim, müəllimə yaxınlıq- dərsə marağın artması, sirr paylaşmaq imkanı, yaxınlığın yaratdığı motivasiya, balanslı və sərhədli yaxınlıq, yaxınlıqdan sui-istifadə riski, özünü kənarda hissetmə |
| | Anlayışlı olmanın əhəmiyyəti | Ailə və şəxsi problemlərə anlayış, hazırlıqsız olma səbəblərini dinləmək, fərdi vəziyyəti nəzərə almaq, təkrar izah, dəstək vermək, anlayışlı müəllim, motivasiyanın güclənməsi |

Şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu mövzusu; yaxın münasibətin rolu və sərhədləri, anlayışlı olmanın əhəmiyyəti olmaqla iki kateqoriya altında verilmişdir.

**Yaxın münasibətin rolu və sərhədləri**

Şagirdlər bu mövzu ilə bağlı sualı cavablandırarkən müəllimlə yaxın münasibətin öyrənmədə mühüm rol

oynadığını vurğuladılar. Eyni zamanda qeyd etdilər ki, bu yaxınlıq müəyyən çərçivələr daxilində, qarşılıqlı hörmətə əsaslanan və pedaqoji norma və sərhədlərə uyğun şəkildə qurulmalıdır. Bu kateqoriyada;

*Ş1: "Yaxın münasibətdə olmalıdır ki, uşaqlar dərsə daha çox həvəslənsinlər. Dərsə həvəslənmək üçün yaxın münasibət qurmalıdırlar."*

*Ş4: "Məncə, müəllim şagirdlə yaxın münasibətdə olmalıdır. Çünki dostca olmalıdırlar ki, şagird müəllimə bir problem olanda bir dərdi olanda açıb danışa bilsin."*

Ş2, müəllimlə yaxın münasibəti dəstəklədiyini bildirsə də, bu yaxınlığın müəyyən sərhədlər daxilində olmasının vacibliyini vurğuladı.

*Ş2: "Amma bunun da bir sərhəddi olduğunu düşünürəm, çünki bəzi şagirdlər var ki, müəllim həddindən artıq yaxın davrananda, onlar da cizgilərini öz sərhədlərini aşırlar. Yəni bunun bir sərhədi olduğunu düşünürəm."*

Ş3, Ş5, Ş6-nın fikirlərinə əsasən, müəllimlə şagird arasındakı yaxınlığın faydalı ola bilməsi üçün mütləq şəkildə balanslı və ölçülü olmalıdır.

*Ş3:" Olmalıdır, amma çox da yaxın olmamalıdır. Bir sinir qoymalıdırlar. Balansı da qorumalıdır, çünki hansısa şagirdə çox yaxın olanda başqa şagirdlərə uzaq, onda onlara da pis təsir edir."*

*Ş5: "Yaxın münasibətdə olmalıdır, amma bir cizgidə olmalıdır. Yəni yaxın olsa daha yaxşı olar. Şagirdlər həm müəllimi sevər, həm də yaxşı olar münasibətləri. Amma belə lap da yaxın yox."*

*Ş6: "Yaxın olmalıdır, amma bunun qədəri olmalıdır. Çox da yaxın yaxşı olmaz məncə. Məsələn müəllim mənə normasında yaxın olduqca daha çox oxuyuram o fənni. Öyrənmə istəyim artır."*

Şagirdlərin cavablarından belə qənaətə gəlmək olur ki, onlar müəllimlə yaxın münasibətin öyrənməyə müsbət təsir göstərdiyini qəbul edirlər. Onların fikrincə, müəllimin şagirdlə səmimi və anlayışlı münasibət qurması, dərsə marağın artmasına və müəllimə inamın formalaşmasına səbəb olur. Bu cür münasibət şagirdlərin özlərini daha rahat ifadə etmələrinə və ehtiyac duyduqları anda müəllimdən dəstək almaqlarına imkan yaradır. Bununla belə, şagirdlər münasibətin sərhədlər daxilində olmasının vacibliyini də vurğulayırlar. Onlar qeyd edirlər ki, münasibət həddindən artıq yaxın olduqda bəzi şagirdlər bu

sərbəstliyi sui-istifadə edə bilər və bu da həm müəllimə, həm də digər şagirdlərə mənfi təsir göstərə bilər. Bu səbəbdən münasibətlərdə balansın qorunması, həm səmimiyyətin, həm də pedaqoji sərhədlərin nəzərə alınması şagirdlər tərəfindən ideal model kimi qiymətləndirilir.

**Anlayışlı olmanın əhəmiyyəti**

Şagirdlər cavablarında müəllimin onlara qarşı anlayışlı yanaşmasının öyrənmə prosesində mühüm rol oynadığını vurğuladılar. Bu kateqoriyada;

*Ş4: "Müəllim anlayışlı olmalıdır ki, şagird hər şeyi müəllimə danışa bilsin. Müəllim mənimlə yaxşı rəftar eləyəndə, mən də ona hörmət qoyub, onun dərslərini öyrənirəm."*

*Ş5: "Bəzi mövzularda anlayışlı olsalar, şagirdlər də onlara qarşı daha anlayışlı olarlar. Yəni müəllim mənə qarşı yaxşı anlayışlı olur, yaxın olur, mən də onu daha çox sevirəm, fənni daha çox öyrənirəm."*

Ş6, gürcü dili müəllimini nümunə göstərərək, şagirdlərə nümayiş etdirdiyi anlayışlı yanaşmanın onların öyrənmə prosesində mühüm rol oynadığını xüsusi vurğuladı.

*Ş6: "Bizim gürcü dili müəllimimiz bizə qarşı çox anlayışlıdır. Bu səbəbdən ona sirrlərimizi rahatlıqla etibar edə bilirik. Onunla münasibətim yaxşı olduğu üçün həmin fənni daha həvəslə və daha yaxşı oxuyuram."*

*Ş7: "Müəllimlər şagirdlərə qarşı anlayışlı olmalıdırlar ki, onların problemlərini başa düşsünlər və bunun nəticəsində daha səmərəli və təsirli münasibət qura bilsinlər."*

Ş8, müəllimin anlayışlı və dəstəkverici münasibətinin onun gürcü dili fənnində əldə etdiyi nəticələrə mühüm təsir göstərdiyini qeyd edərək, bu münasibətin həm motivasiya baxımından, həm də öyrənmə prosesinə yanaşmada xüsusi rol oynadığını vurğuladı.

*Ş8: "Gürcü dilində nə oxumağı, nə də yazmağı bacarırdım. Lakin müəllimin anlayışlı və yaxın münasibəti sayəsində bu fəndə daha yaxşı nəticələr əldə etdim."*

Şagirdlərin cavablarına əsasən, müəllimin anlayışlı olması onların öyrənməsinə müsbət təsir göstərir. Şagirdlər bildiriblər ki, müəllimlə aralarındakı anlayışa əsaslanan münasibət onları dərsə daha çox maraqla yanaşmağa, fənni daha yaxşı mənimsəməyə və müəllimə hörmətlə yanaşmağa təşviq edir. Həmçinin qeyd

edirlər ki, anlayışlı müəllimə öz problemlərini açıq şəkildə danışa bilirlər və bu da münasibətlərin daha güclü və səmimi olmasına səbəb olur. Bu münasibətlər, xüsusilə çətinlik çəkilən fənlərdə belə, daha yaxşı nəticələr əldə etməyə kömək edir.

### 1.7 Müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri

**Cədvəl 10:** Mövzu 3- Müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri

| Mövzu adı | Kateqoriya | Kodlar |
|---|---|---|
| Müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri | Motivasiya itkisi və maraqsızlıq | Müəllimin sərtliyi, fənnə marağın azalması, öyrənməyə qarşı istəksizlik, qiymət naminə məcburi hazırlıq, fənnə qarşı nifrət, şəxsi təcrübə əsasında mənfi münasibət |

Müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri mövzusu; motivasiya itkisi və maraqsızlıq olmaqla bir kateqoriya əsasında incələnmişdir.

**Motivasiya itkisi və maraqsızlıq**

İştirakçılar vurğuladılar ki, müəllimin sərt və soyuq münasibəti onların öyrənmə prosesinə və motivasiyasına mənfi təsir göstərir. Bu kateqoriyada;

*Ş4: "Müəllim şagirdlə sərt və soyuq rəftar eləsə, həmin uşağın müəllimin keçdiyi fənnə qarşı həvəsi qalmır. Buna görə də onun dərsini oxumaq istəmir. Mənim təcrübəmdə- elə mən də eləyəm. Müəllim, mənimlə soyuq rəftar edəndə, yaxşı rəftar eləməyəndə onun dərsinə həvəsim qalmır."*

Ş5, Ş6 və Ş7 şəxsi təcrübələrinə əsaslanaraq, sərt və soyuq münasibət göstərən müəllimlərin onların öyrənmə prosesinə, motivasiyasına və dərsə hazırlıqlarına mənfi təsir etdiyini aşağıdakı kimi vurğuladılar.

*Ş5: "Müəllim sərt və soyuq davrananda şagirdlər onun fənnini ümumiyyətlə oxumaq istəmirlər və müəllimə qarşı nifrətlə yanaşırlar. Olub ki, müəllim sərt və soyuq davranıb onda mən həmin müəllimin*

*fənninə hazırlanmaq istəməmişəm.”*

*Ş6: “Onda heç öyrənmək istəmirəm. Bir dəfə müəllimlərdən biri mənə qarşı çox sərt yanaşmışdı. Mən də ona görə onun fənini sevmədim, öyrənmədim. Ona görə ki, öyrənmək istəmədim onun fənnini. Yəni, içimdən gəlmədi onun dərsini öyrənmək. Sərt və soyuq davrandığı üçün. ”*

*Ş7: "Müəllim sərt və soyuq münasibət göstərəndə bu, mənə pis təsir edir, artıq öyrənmək istəmirəm. Məsələn, gürcü dili və musiqi müəllimləri bəzən elə davranırlar, şagirdlərə 'heç nə başa düşmürsünüz', 'səysiniz' kimi sözlər deyirlər. Belə rəftardan sonra oxumaq istəyi qalmır."*

Ş8, Ş9, Ş10 da müəllimin soyuq və sərt münasibətinin şagirdin dərsə olan həvəsinə necə mənfi təsir göstərdiyini şəxsi təcrübəsindən nümunə gətirərək əsaslandırdılar.

*Ş8: “Əvvəllər bir müəllimim olub. Sərt və soyuq davranırdı. Nəticədə nə mənim, nə də sinif yoldaşlarımın onun dərsinə marağı qalmadı. Sinifdə 23 nəfər idik və hamımız müəllimlə münasibətdən narazı idik. Onun bu davranışı dərsə həvəsimizi tamamilə azaldırdı.”*

*Ş9: "Elə bir müəllimim olub ki, sanki insanla xoş rəftarın nə olduğunu bilmirdi. Onunla aramda heç bir ünsiyyət qurulmurdu, hətta salam belə vermirdim. Bu səbəbdən həmin fənnə qarşı heç bir marağım yox idi və onu öyrənmək istəmirdim."*

*Ş10: "Bəzən müəllimin soyuq davranışı səbəbindən dərsə diqqət yetirmirəm. Münasibətim yaxşı olmayan, sevmədiyim müəllimlər olub. Hətta onların dərsində iştirak etmək istəməmişəm, sakitcə keçib arxada oturmuşam. Amma sevdiyim və münasibətim yaxşı olan müəllimlərin dərslərində fəal şəkildə iştirak edirəm və diqqətlə qulaq asıram."*

Şagirdlərin cavablarından aydın olur ki, müəllimin sərt və soyuq davranışı onların öyrənmə motivasiyasına birbaşa mənfi təsir göstərir. Onlar qeyd edirlər ki, belə münasibət olduqda fənnə qarşı maraqları azalır, dərsə həvəslə yanaşmırlar və hətta dərsdə fəal iştirak etmirlər. Bəzi şagirdlər konkret müəllimlərin sərt söz və rəftarlarından sonra həmin dərsi sevmədiklərini, hazırlıq etmədiklərini və fənnə qarşı nifrət hissi keçirdiklərini bildiriblər. Bu hallar onu göstərir ki, müəllimin şagirdə qarşı davranış tərzi sadəcə münasibət səviyyəsində qalmır, həm də şagirdin dərsə yanaşmasına və ümumi akademik uğurlarına

ciddi təsir edir. Deməli, müəllimin mülayim, anlayışlı və dəstəkləyici münasibəti şagirdin motivasiyasının qorunmasında əsas rol oynayır.

### 1.8 Müəllim-şagird münasibətlərinin inkişafı (Şagirdlərin fikirləri əsasında)

**Cədvəl 11:** Mövzu 4- Müəllim-şagird münasibətlərinin inkişafı (Şagirdlərin fikirləri əsasında)

| Mövzu adı | Kateqoriya | Kodlar |
|---|---|---|
| Müəllim-şagird münasibətlərinin inkişafı (Şagirdlərin fikirləri əsasında) | - | Qarşılıqlı hörmət, şagirdə fərdi yanaşma, müəllimə qarşı mədəni davranış, dostyana və anlayışlı yanaşma, şagirdi sevmək və sevgi ilə öyrətmək, hamıya bərabər münasibət, şagirdin marağı-müəllimin həvəsi, şagirdin hisslərini anlamaq, danışıq və müşahidə ilə münasibətlərin inkişafı |

Müəllim-şagird münasibətlərinin inkişafı (Şagirdlərin fikirləri əsasında) mövzusu; şagirdlərin verdiyi cavablar əsasında, əvvəlcədən müəyyən olunmuş kateqoriyalardan istifadə edilmədən, kodlara əsasən təhlil edilmişdir.

Şagirdlərin cavablarına əsasən, müəllim-şagird münasibətlərinin inkişafı üçün bir sıra vacib amillər ön plana çıxır. Şagirdlər qarşılıqlı hörməti münasibətlərin təməli kimi görürlər. Onların fikrincə, yalnız şagirdin müəllimə hörmət etməsi deyil, eyni zamanda müəllimin də şagirdi şəxsiyyət kimi qəbul edərək ona hörmətlə yanaşması mühümdür. Bu, münasibətdə bərabərlik və qarşılıqlı etimad formalaşdırır.

Şagirdlər həmçinin müəllimin onları fərdi olaraq tanımasının vacibliyini qeyd edirlər. Onların ehtiyaclarını, maraqlarını və fərqliliklərini nəzərə alan müəllimlə daha güclü və səmimi münasibət

qurmaq mümkün olur. Şagirdlər üçün müəllimin anlayışlı və dostyana yanaşması onların özlərini dəyərli hiss etməsinə və daha rahat ünsiyyət qura bilmələrinə şərait yaradır. Bundan əlavə, müəllimin şagirdləri sevməsi və sevgisini tədris prosesinə daşıması şagirdlərin motivasiyasını artıran əsas amillərdən biri kimi qeyd olunub. Sevgi ilə keçirilən dərslər şagirdlər üçün həm maraqlı, həm də daha təsirli olur. Şagirdlər eyni zamanda müəllimlərin bütün şagirdlərə qarşı eyni münasibət göstərməsini ədalətli və sağlam münasibətlərin vacib şərti hesab edirlər. Əks təqdirdə, ayrı-seçkilik hissi digər şagirdlərin motivasiyasına mənfi təsir edə bilər. Bundan əlavə, şagirdlərin fikrincə, əgər onlar dərsə maraq göstərsələr və dərs prosesində fəallıq nümayiş etdirsələr, müəllim də daha həvəslə və coşqu ilə
dərs keçər. Bu qarşılıqlı münasibət müsbət tədris mühiti formalaşdırır. Nəhayət, şagirdlər müəllimin onların hisslərini anlamağa çalışmasının münasibətlərin dərinləşməsinə və inamın möhkəmlənməsinə səbəb olduğunu düşünürlər. Danışıq və müşahidə isə müəllim-şagird münasibətlərinin inkişafında əvəzolunmaz vasitələrdir – çünki bu yollarla müəllim şagirdin ehtiyaclarını daha dərindən qavrayaraq, ona uyğun dəstək göstərə bilir.

Beləliklə, şagirdlərə görə sağlam müəllim-şagird münasibətlərinin inkişafı üçün hörmət, fərdi yanaşma, bərabərlik, anlayış, sevgi və effektiv ünsiyyət əsas şərtlər kimi ön plana çıxır.

**Müzakirə**

Müəllim-şagird münasibətləri — təhsil prosesində müəllim və şagird arasında yaranan qarşılıqlı əlaqə və ünsiyyət formasıdır. Bu münasibətlər tədrisin keyfiyyətinə, şagirdin psixoloji inkişafında və ümumi məktəb mühitində birbaşa rol oynayır. Sağlam və müsbət münasibətlər qarşılıqlı hörmətə, anlayışa, dəstəyə və inam hissinə əsaslanır. Belə münasibətlər şagirdin özünü ifadə etməsinə, dərsə maraq göstərməsinə və sosial bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır.

Bu tədqiqat işində müəllim-şagird münasibətlərinin öyrənmədə rolu iki orta məktəbdə müəllim və şagirdlərin fikir, baxış və təcrübələri əsasında keyfiyyət tədqiqat metodu ilə dərindən araşdırılmışdır. Tədqiqatda məlumatlar müsahibə üsulu ilə toplanmış və tematik analiz metodu ilə təhlil edilmişdir. Analiz nəticəsində müəllimlərin cavablarına əsasən aşağıdakı beş mövzu müəyyən edilmişdir: müəllim-

şagird münasibətlərini formalaşdıran əsas amillər, müəllim-şagird münasibətlərinin qurulması zamanı istifadə olunan yanaşmalar, müəllim-şagird münasibətlərinin öyrənmədə rolu (müəllim baxış və təcrübələrinə əsasən), müəllim-şagird münasibətlərinin şagirdlərin akademik nailiyyətlərinə təsiri və müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi yolları. Şagirdlərin cavablarına əsasən isə dörd əsas mövzu ortaya çıxmışdır: müəllimlərin şagirdlərə münasibətinin öyrənmə prosesinə təsiri (dərsə hazırlıq, maraq və akademik nailiyyətlər baxımından), şagirdin öyrənməsində müəllimlə qurulan yaxın münasibətin və anlayışlı yanaşmanın rolu, müəllimin sərt və soyuq münasibətinin öyrənməyə mənfi təsiri və müəllim-şagird münasibətlərinin inkişafı (şagirdlərin fikirləri əsasında).

Aparılan tədqiqatın nəticələrinə əsasən, müəllim-şagird münasibətləri öyrədənlə öyrənən arasında qarşılıqlı ünsiyyət kimi qiymətləndirilmiş, bu münasibətlərin əsasən hörmət, dəstək, səmimiyyət, inam və dostluq prinsipləri üzərində qurulduğu, formalaşdığı müşahidə olunmuşdur. Bu nəticə, mövcud elmi ədəbiyyatın nəticələri ilə üst-üstə düşür və beynəlxalq səviyyədə aparılan tədqiqatlarla paralellik təşkil edir. Məsələn, Larson və digərləri (2002) müəllim-şagird münasibətlərini gündəlik ünsiyyətə əsaslanan və səlahiyyət sahibi ilə tabeliyində olan şəxs arasında qurulan formal əməkdaşlıq kimi xarakterizə edirlər. Bu baxış, tədqiqatın müəllim-şagird münasibətlərinin qarşılıqlı anlaşma və əməkdaşlıq üzərində qurulduğu fikrini dəstəkləyir. Eyni zamanda, Al Nasseri və digərləri (2014) tərəfindən aparılan ədəbiyyat icmalı göstərir ki, müəllimlər tərəfindən göstərilən qayğı, dəstək, etibar (inam) və hörmət, şagirdlərin öyrənməyə qarşı daha müsbət münasibət nümayiş etdirməsinə səbəb olur. Bu nəticə, tədqiqatda müşahidə olunan, müəllimin hörmət və inama əsaslanan, dəstəkləyici və dostcasına münasibətinin şagirdlərin motivasiyasını və dərsə marağını artırdığı qənaəti ilə üst-üstə düşür. Al Nasseri və digərlərinin (2014) qeyd etdiyi kimi, etibar və hörmət üzərində qurulan münasibətlər, şagirdlərin sual vermək və dəstək istəmək baxımından daha cəsarətli olmalarına imkan yaradır ki, bu da öyrənmənin keyfiyyətini artırır. Beləliklə, həm yerli, həm də beynəlxalq tədqiqatların nəticələri göstərir ki, hörmət, etibar (inam), dəstək və səmimiyyət kimi amillər müəllim-şagird münasibətlərini formalaşdıran əsas faktorlar sırasındadır və bu münasibətlərin öyrənmə prosesinə birbaşa təsiri vardır. Tədqiqat nəticələrinə əsasən, müəllim-şagird münasibətlərinin

qurulmasında fərdi yanaşma və açıq, rahat kommunikasiyaya əsaslanan metodlardan istifadə edilməsi diqqət çəkir. Bu, Zainullah və digərləri (2023) tərəfindən əldə olunan nəticələrlə üst-üstə düşür. Həmin tədqiqatda müəllimlərin şagirdlərə fərdi diqqət ayırması, ünsiyyət bacarıqları və rifaha olan həqiqi marağının sinifdə təhlükəsizlik və etibar hissi yaratdığı vurğulanır. Eyni zamanda, Higgins (2011) tərəfindən qeyd olunan, müəllimlərin fərqliliyi qəbul etməsinin inklüziv və dəstəkləyici mühitin formalaşmasına səbəb olduğu fikri də tədqiqatın nəticələrinə uyğun gəlir. Tədqiqatda müəllimlərin fərdi yanaşması və sərbəst, açıq kommunikasiya şəraiti yaratması şagirdlərin özlərini ifadə etmələrinə və öyrənmə prosesinə daha fəal qoşulmalarına imkan verdiyi müəyyən edilir.

Tədqiqat nəticələrinə əsasən, müəllim-şagird münasibətləri həm şagirdlərin öyrənmə prosesi, həm də akademik nailiyyətləri baxımından həlledici əhəmiyyət daşıyır. Müəllim iştirakçıların fikirlərindən aydın olur ki, şagirdin müəllimi sevməsi və onunla müsbət münasibət qurması fənnə qarşı marağın formalaşmasına və dərslərə aktiv qoşulmasına səbəb olur. Müəllimlərin vurğuladığı əsas məqamlardan biri də budur ki, müəllimin pozitiv münasibəti və fərdi ehtiyaclara həssas yanaşması şagirdlərin ümumi nailiyyətlərini və dərsə marağını artırır. Bu nəticələr Pianta və Stuhlman (2004), Pianta və digərləri (2012), eləcə də Al Nasseri və digərləri (2014) tərəfindən aparılmış beynəlxalq tədqiqatlarla üst-üstə düşür. Məsələn, Pianta və digərləri (2012) ABŞ-də apardıqları araşdırmada qeyd edirlər ki, müəllim-şagird münasibətlərinin keyfiyyəti şagirdlərin dərsə cəlb olunmasında və motivasiya səviyyəsinin yüksəlməsində mühüm rol oynayır. Tədqiqat göstərir ki, müsbət münasibətlər şagirdin akademik uğurunu gücləndirir, neqativ münasibətlər isə öyrənməni zəiflədir. Eyni zamanda, müəlliflər bu münasibətlərin yalnız akademik göstəricilərlə məhdudlaşmadığını, həm də şagirdlərin sosial bacarıqları və davranışlarında özünü göstərdiyini qeyd edirlər. Şagird iştirakçıların cavabları da bu fikirləri dəstəkləyir. Onlar bildirirlər ki, müəllimlə müsbət münasibət dərsə hazırlıqda daha yüksək istək yaradır və nəticə etibarilə qiymətlərə və ümumi nailiyyətlərə birbaşa təsir göstərir. Bu da Al Nasseri və digərlərinin (2014) nəticələri ilə uzlaşır; həmin tədqiqatda müəllim tərəfindən göstərilən etibar, qayğı və hörmətin, şagirdlərin öyrənməyə müsbət münasibət bəsləməsinə səbəb olduğu vurğulanır. Beləliklə, istər yerli tədqiqatın nəticələri, istərsə də

beynəlxalq səviyyədə aparılan araşdırmalar göstərir ki, müəllim-şagird münasibətləri öyrənmənin keyfiyyətində və şagirdin akademik göstəricilərində əhəmiyyətli rol oynayır. Bu münasibətlərin səmimi, anlayışlı və dəstəkləyici olması şagirdin dərsə marağını artırır, motivasiyasını yüksəldir və nəticə etibarilə uğurlu öyrənməyə zəmin yaradır.

Tədqiqat işinin nəticələrinə əsasən, şagirdlər müəllimlə qurulan yaxın və anlayışlı münasibətin onların öyrənmə motivasiyasına və ümumi uğurlarına müsbət təsir göstərdiyini açıq şəkildə ifadə etmişlər. Onlar bildirirlər ki, müəllimin yaxın münasibəti və anlayışlı yanaşması onlarda daha güclü öyrənmə həvəsi yaradır. Bu qənaət, Birch və Ladd (1997) tərəfindən aparılan araşdırmanın nəticələri ilə üst- üstə düşür. Həmin tədqiqatda müəllim-şagird münasibətində yaxınlığın, uşaqların akademik performansı və məktəbə qarşı münasibəti ilə müsbət əlaqədə olduğu müəyyən edilmişdir. Müəllimlə yaxın münasibət şagirdin məktəbi sevməsinə və müsbət davranış nümayiş etdirməsinə şərait yaradır. Bununla belə, şagirdlər düşünürlər ki, müəllimlə münasibət çox yaxın olduqda bəzi şagirdlər bu vəziyyətdən sui-istifadə edə bilər. Onlara görə, münasibət mehriban olsa da, sərhədlər olmalıdır ki, həm müəllim, həm də sinif nizam-intizamını qoruya bilsin. Nəticələrə əsasən, müəllimin sərt və soyuq münasibəti şagirdlərin dərsə marağını azaldır və motivasiyasını zəiflədir. Bu nəticə də xarici mənbələrdə mövzu ilə əlaqəli həyata keçirilən tədqiqat nəticələri ilə üst-üstə düşür. Doumen və digərləri (2012) göstəriblər ki, müəllimlə isti və yaxın münasibət şagirdin dərsə fəal qoşulmasına kömək edir, münaqişəli, sərt və soyuq münasibət isə əksinə, şagirdin sinifdə iştirakını və dərslərə marağını azaldır.

Tədqiqat nəticələrinə görə, həm müəllimlər, həm də şagirdlər müəllim-şagird münasibətlərinin təkmilləşdirilməsi və inkişafı üçün bir neçə vacib amili önə çəkirlər. Müəllimlər bu prosesi davamlı və kompleks bir yol kimi görürlər. Onlara görə, münasibətləri yaxşılaşdırmaq üçün fərdi yanaşma, effektiv ünsiyyət, valideynlərlə əməkdaşlıq, minimum qaydalar və davamlı peşəkar inkişaf vacibdir. Şagirdlər isə münasibətin yaxşı olması üçün qarşılıqlı hörmət, fərdi yanaşma, anlayış, sevgi və bərabər münasibət kimi dəyərləri vacib sayırlar. Bu fikirlərin bir qismi xarici ədəbiyyatda aparılmış tədqiqatların nəticələri ilə də üst-üstə düşür. Higgins (2011) müəllimin müxtəlifliyi qəbul edərək sinifdə inklüziv və rahat mühit

yaratmasının münasibətləri gücləndirdiyini göstərir. Eyni zamanda Fosen (2016) müəllimlərin öz münasibətlərinə şüurlu yanaşması, yəni peşəkar inkişaf, münasibətləri daha müsbət və ədalətli şəkildə inkişaf etdirməyə kömək etdiyini vurğulayır.

## Nəticə

Ümumi nəticə olaraq demək olar ki, bu tədqiqat işində əldə olunan tapıntılar bəzi fərqliliklərə baxmayaraq, xarici tədqiqatların nəticələri ilə ümumi uyğunluq təşkil edir. Həm yerli, həm də beynəlxalq səviyyədə aparılan araşdırmalar sübut edir ki, müəllim-şagird münasibətləri şagirdlərin yalnız öyrənməsində, akademik nailiyyətlərində deyil, eyni zamanda onların psixososial inkişafında da əhəmiyyətli rol oynayır. Bu tədqiqatda iştirakçıların ifadələri göstərdi ki, səmimi, empatik və dəstəkləyici müəllim münasibətləri şagirdlərdə dərsə marağı artırır, özünəinam hissini gücləndirir və daha aktiv öyrənmə mühiti yaradır. Əksinə, sərt və emosional baxımdan soyuq münasibətlərin isə şagirdlərin motivasiyasına mənfi təsir etdiyi, onların müəllimdən çəkinməsinə və bəzən yalan danışmaq kimi müdafiə mexanizmlərinə yönəlməsinə səbəb olduğu müşahidə olunmuşdur. Müəllimlərin fərdi yanaşma, açıq ünsiyyət və empatiya ilə şagirdlərə yaxınlaşması, şagirdlərin özlərini dəyərli və dinlənilən hiss etmələrinə şərait yaradır. Bu, həm onların akademik göstəricilərinə, həm də sinifdə sosial iştiraklarına müsbət təsir göstərir. Tapıntılar göstərdi ki, müəllim-şagird münasibətləri təkcə bilik ötürülməsi prosesi deyil, eyni zamanda emosional təhlükəsizlik, qarşılıqlı hörmət və şəxsiyyətin inkişafını da əhatə edən kompleks bir əlaqədir. Nəticə etibarilə, müəllim-şagird münasibətlərinə sadəcə bir ünsiyyət forması kimi deyil, öyrənməni formalaşdıran, təşviq edən və istiqamətləndirən əsas pedaqoji faktor kimi yanaşmaq lazımdır. Bu münasibətlərin davamlı şəkildə inkişaf etdirilməsi, təhsil sistemində keyfiyyətin yüksəldilməsinə və daha inklüziv, dəstəkləyici məktəb mühitinin formalaşmasına töhfə verir.

## Tövsiyələr

Aparılan təhlillər göstərdi ki, müəllim-şagird münasibətləri şagirdlərin dərsə marağına, öyrənməyə motivasiyasına və ümumilikdə akademik nailiyyətlərində birbaşa rol oynayır. Şagirdlər tərəfindən

vurğulanan fikirlər əsasında məlum oldu ki, müəllimin səmimi, empatik, yaxın, anlayışlı və dəsətkverici yanaşması müsbət emosional atmosferin formalaşmasına və öyrənmənin stimullaşdırılmasına xidmət edir. Bu mövzuda, əldə olunan nəticələrə əsasən aşağıdakı təkliflər irəli sürülür:

Müəllim hazırlığında və peşəkar inkişaf proqramlarında münasibət qurma bacarıqlarına dair komponentlərin gücləndirilməsi;

Məktəblərdə münasibət əsaslı dəstək sistemlərinin qurulması;

Müəllimlərin şagirdləri fərdi olaraq tanıması və fərqli ehtiyaclara uyğun yanaşmalar formalaşdırması üçün təlimlərin təşkili;

Monitorinq və qiymətləndirmə alətlərinə müəllim-şagird münasibətlərini əhatə edən sual və maddələrin əlavə olunması;

İnzibati və pedaqoji heyətin müəllim-şagird münasibətləri mövzusunda maarifləndirilməsi və bu münasibətləri dəstəkləyən mexanizmlərin hazırlanması.

Bu tədqiqat işi keyfiyyət metodologiyasına əsaslanaraq aparılsa da, gələcəkdə mövzu üzrə həm kəmiyyət, həm də qarışıq tədqiqat metodlardan istifadə olunaraq daha geniş araşdırmalar aparıla bilər. Bu, müəllim-şagird münasibətlərinin müxtəlif aspektlərinin daha sistemli və statistik əsaslarla öyrənilməsinə şərait yaradar. Bundan əlavə, müəllim-şagird münasibətlərinin öyrənmədə rolu və təsiri yalnız ümumi səviyyədə deyil, müxtəlif fənlər və siniflər üzrə ayrıca araşdırılaraq bu sahədə elmi ədəbiyyata mühüm töhfələr vermək mümkündür. Eyni zamanda, belə bir araşdırmanın nəticələrinin müəllim-şagird münasibətləri ilə bağlı mövcud ədəbiyyatın zənginləşdirilməsinə və gələcəkdə bu mövzu üzrə aparılacaq tədqiqatlara dəyərli töhfələr verəcəyinə inanılır.

Nəticə etibarilə, bu tədqiqat müəllim-şagird münasibətlərinin təhsil prosesindəki rolunu vurğulamaqla yanaşı, gələcək tədqiqatlar və praktik tədbirlər üçün zəmin yaratmaqdadır.

**Ədəbiyyat siyahısı**

Al Nasseri, Y.S., Renganathan, L., Al Balushi, A. and Al Nasseri, F. (2014) Impact of Students- Teacher Relationship on Student's Learning: A Review of Literature. *International Journal of Nursing Education*, *6*, 167. https://doi.org/10.5958/j.0974-9357.6.1.034

Babbie, E. R. (2020). *The Practice of Social Research* (15th ed.). Cengage AU.

Babbie, E. R. (2013). *The practice of social research* (13th ed.). Wadsworth Cengage Learning. Bayraktar, H. V. (2015). The importance of teacher-student communication: An analysis of empathy in education. *Journal of Education and Practice*, *6*(12), 78-84. https://doi.org/10.7176/JEP/6-12-12

Beyazkürk, D., & Kesner, J. E. (2005). Cultural differences in teacher–student relationships in Turkey and the United States. *International Journal of Educational Research, 43*(6), 401–414. https://doi.org/10.1016/j.ijer.2006.02.001

Birch, S. H., & Ladd, G. W. (1997). The teacher–child relationship and children's early school adjustment. *Journal of School Psychology, 35*(1), 61–79. https://doi.org/10.1016/S0022-4405(96)00029-4

Bowlby, J. (2015). *Attachment theory, separation anxiety, and mourning*. International Psychotherapy Institute.

Creswell, J. W. (2013). *Qualitative inquiry and research design: Choosing among five approaches* (2nd ed.). SAGE.

Creswell, J. W. (2014). *Research design: Qualitative, quantitative, and mixed methods approaches* (4th ed.). SAGE.

Creswell, J. W., & Creswell, J. D. (2018). *Research design: Qualitative, quantitative, and mixed methods approaches* (5th ed.). SAGE.

Dai, P. (2004). The impact of teacher support on the development of students' creative thinking. *Creativity Research Journal, 16*(3), 247–258. https://doi.org/10.1080/10400419.2004.9651478

Doumen, S., Koomen, H. M. Y., Buyse, E., Wouters, S., & Verschueren, K. (2012). Teacher–child relationships and behavioral adjustment: Transactional links for preschool boys at risk. *Journal of School Psychology*, *50*(3), 363–378.

Fan, M. (2023). The influence of teacher–student relationships on learning motivation of elementary school students. *Journal of Education and Educational Research*, *5*(3), 63–66. https://doi.org/10.54097/jeer.v5i3.13321

Fomichenko, A. S. (2017). Взаимоотношения в системе «учитель—ученик» как условие успешности учебной деятельности школьников [Teacher–student relationships as a condition for the academic success of schoolchildren]. *Psikhologicheskaya Nauka i Obrazovanie*, *22*(5), 39–47. https://doi.org/10.17759/pse.2017220505

Fomichenko, A. S. (2019). Особенности влияния характера взаимодействия в системе «учитель–ученик» на процессы обучения и развития школьников (по материалам зарубежных публикаций) [Features of the influence of teacher–student interaction on learning and development processes of schoolchildren (based on foreign publications)]. *Sovremennaya Zarubezhnaya Psikhologiya*, *8*(1), 76–83. https://doi.org/10.17759/jmfp.2019080108

Fosen, D. M. (2016). *Developing good teacher–student relationships: A multiple-case study of six teachers' relational strategies and perceptions of closeness to students* [Unpublished doctoral dissertation]. Institute of Education, University College London.

García Sánchez, C. A., Scholes Gillings de González, B., & López Martínez, C. de J. (2013). The impact of teacher–student relationships on EFL learning. *HOW Journal*, *20*(1), 116–129. https://www.howjournalcolombia.org/index.php/how/article/view/26

Göktas, E., & Kaya, M. (2023). The effects of teacher relationships on student academic achievement: A second-order meta-analysis. *Participatory Educational Research*, *10*(1), 275–289. https://doi.org/10.17275/per.23.15.10.1

Higgins, C. S. (2011). *Teacher–student relationship development: A qualitative study of interpersonal connections in an early childhood classroom* [Unpublished doctoral dissertation]. Ohio State University. https://rave.ohiolink.edu/etdc/view?acc_num=osu1322511149

Klem, A. M., & Connell, J. P. (2004). Relationships matter: Linking teacher support to student engagement and achievement. *Journal of School Health, 74*(7), 262–273. https://doi.org/10.1111/j.1746-1561.2004.tb08283.x

Koomen, H. M. Y., Verschueren, K., van Schooten, E., Jak, S., & Pianta, R. C. (2012). Validating the Student–Teacher Relationship Scale: Testing factor structure and measurement invariance across child gender and age in a Dutch sample. *Journal of School Psychology, 50*(2), 215–234. https://doi.org/10.1016/j.jsp.2011.09.001

Kvale, S., & Brinkmann, S. (2009). *InterViews: Learning the craft of qualitative research interviewing* (2nd ed.). Sage Publications.

Mallik, B. (2023). Teacher–student relationship and its influence on college student engagement and academic achievement. *Anatolian Journal of Education, 8*(1), 93–112. https://doi.org/10.29333/aje.2023.817a

McGrath, K. F., & Van Bergen, P. (2015). Who, when, why and to what end? Students at risk of negative student–teacher relationships and their outcomes. *Educational Research Review, 14*, 1–17. https://doi.org/10.1016/j.edurev.2014.12.001

Mensah, B., & Koomson, E. (2020). Linking teacher–student relationship to academic achievement of senior high school students. *Social Education Research, 2*(2), 123–134. https://doi.org/10.37256/ser.122020140

Mocrei Rebrean, L. (2017). The effects of teacher–student relationships on academic achievement: A college survey. *Annals of Philosophy, Social and Human Disciplines, 1*(1), 39–51.

Omodan, B. I., & Tsotetsi, C. T. (2018). Student–teacher relationships as a panacea for students' academic performance in Nigerian secondary schools: An attachment perspective. *Journal of Social Studies Education Research, 9*(4), 82–101.

Pianta, R. C., & Stuhlman, M. W. (2004). Teacher–child relationships and children's success in the first years of school. *School Psychology Review, 33*(3), 444–458.

Pianta, R. C., Hamre, B. K., & Allen, J. P. (2012). Teacher–student relationships and engagement: Conceptualizing, measuring, and improving the capacity of classroom interactions. In S. L. Christenson, A. L. Reschly, & C. Wylie (Eds.), *Handbook of research on student engagement* (pp. 365–386). Springer. https://doi.org/10.1007/978-1-4614-2018-7_17

Privitera, G. J., & Ahlgrim-Delzell, L. (2019). *Research methods for education*. SAGE.

Riley, P. (2011). *Attachment theory and the teacher–student relationship: A practical guide for teachers, teacher educators, and school leaders*. Routledge.

Stewart, D. W., & Shamdasani, P. N. (2014). *Focus groups: Theory and practice* (3rd ed.). SAGE.

Syahabuddin, K., Fhonna, R., & Maghfirah, U. (2020). Teacher–student relationships: An influence on the English teaching-learning process. *Studies in English Language and Education, 7*(2), 393–406. https://doi.org/10.24815/siele.v7i2.16922

Taber, K. S. (2013). *Classroom-based research and evidence-based practice: An introduction* (2nd ed.). SAGE.

Xu, Z. Z., & Qi, C. (2019). The relationship between teacher–student relationship and academic achievement: The mediating role of self-efficacy. *EURASIA Journal of Mathematics, Science and Technology Education, 15*(10), 1758. https://doi.org/10.29333/ejmste/105610

Zainullah, M., Mahfud, M., & Riniati, W. O. (2023). Exploring the role of teacher–student relationships in academic achievement: A qualitative study in primary schools. *The Eastasouth Journal of Learning and Education, 1*(02), 76–83. https://doi.org/10.58812/esle.v1i02.111